RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 251 (8844) ŞƏNBƏ 20 noyabr 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



◆ 20 noyabr Ağdamın azadlığa qovuşduğu gündür!



# Salam, Ağdam!

Salam, Ağdam!
Soruşmuram necəsən!
Görünən dağa nə bələdçi, demişlər.
Dünya gördü sənin dağıntılarını, viranəliklərini...
*Yarıdağılmış məscidindən başqa, bir salamat binan qalmayıb.*
*Düşmən qabaq-qənşər döyüşdə onlara etdiklərinin əvəzini daşından, torpağından, ağacından, gözünə görünən hər şeydən çıxıb.*
**Alçaqniyyətli, faşistxislətli, Hitlerin əlaltılarına heykəl qoyan ermənidən başqa nə gözləmək olar?!**

Səndən sonuncu dəfə 1993-cü ilin iyulunda ayrıldım...

Uzundərəni keçəndən sonra maşından düşüb həsrətlə geri boylandım.

Yaşıllığa bürünmüş yaraşıqlı evlərinin abad görünüşünü beynimə yazmaq istəyirdim...

Başqa nə etmək olardı ki...

Bilirdim ki, Ağdamın düşmən əlinə keçməsinə sayılı günlər qalıb.

Aylar öncə strateji yüksəkliklər əldən verilmişdi, havadarlarına arxalanan düşmən isə silah-sursat, canlı qüvvə cəmləyərək rayon mərkəzinə qəti hücuma hazırlaşırdı.

**Başı hakimiyyət şirinliyinə, şəxsi maraqlarını ödəməyə qarışan AXC-Müsavat cütlüyü torpaqları müdafiə barədə düşünməyə vaxt tapmırdı.**

**Əksinə...**

**Onların müdafiə naziri Rəhim Qazıyev xəyanət yolu ilə torpaqların düşmənə verilməsinə münbit şərait yaratmışdı.**

Əvvəlcə Şuşaya gedərək orada özünə qarşı qondarma "sui-qəsd əməliyyatı" təşkil etmiş, bununla da "personası"nın vacibliyini diqqətə çatdırmışdı.

Ardınca Şuşanın müdafiəsində can-başla iştirak edən, insanları səfərbərliyə almağı bacaran şəhərin ozamankı rəhbəri Mikayıl Gözəlovun və Şuşa Özünümüdafiə Batalyonunun komandiri Ramiz Qənbərovun müəmmalı qətli şəhərin düşmənə verilməsi ilə nəticələnmişdi.

Daha sonra Ağdama gələn Rəhim Qazıyev iki özünümüdafiə batalyonunun komandirləri arasında qan düşmənçiliyi salaraq buranın da müdafiəsini zəiflətmişdi.

**Bax beləcə, Ağdam xəyanət əməllərindən və yiyəvay dərdindən işğala məruz qaldı...**

*Amma buna qədər ağdamlı igidlər, respublikanın hər bir guşəsindən köməyə gələn mərd oğullar düşmənə mümkün olan zərbələri vurmuşdular.*

Qarabağ uğrunda müharibənin ilk şəhidlərini Əlinin və Bəxtiyarın simasında məhz sən vermişdin.

*Daha sonra altı minədək övladın şəhid oldu!*

*Əfsus!*

**Təkcə vətənpərvərliklə, təkcə sücaət və qəhrəmanlıqla torpaq qorumaq mümkün deyil!**

Lap iyirmi min insanı şəhid versən də belə!

*Mərd, müdrik və uzaqgörən Sərkərdən, nizami ordun və mükəmməl silah-sursatın da olmalıdır!*

Həmin dövrdə isə bunların heç biri yox idi!

*Beləliklə, doğma Vətənin bir parçasını müvəqqəti də olsa itirdik!*

*O parçanın içində sən də vardın, Ağdamım mənim!*

*Və bu ayrılıq düz 27 il sürdü...*

*İztirab, məşəqqət, əzab, həsrət dolu 27 il!*

*Nə müsibətlər çəkdi başımız...*

Qəddimiz əyilsə də, bükülmədi...

Qürurumuz sınsa da, özümüz sınmadıq!

Vətən həsrəti ilə çoxları ölsə də, ümidimizi ölməyə qoymadıq!

Əmanət qəbirlərdə yataraq, sənə qovuşacağımız günü gözlədik!

**Prezidentimizə, rəhbərimizə inandıq, ona güvəndik, ona arxalandıq!**

**Bilirdik ki, bu işğal əbədi çəkməz!**

Ardı 5-ci səh.

# Dəmir yolu infrastrukturu müasirləşdirilir

## Prezident İlham Əliyev yeni Biləcəri Lokomotiv Deposunun açılışında iştirak edib



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri Lokomotiv Deposunun açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

QSC-nin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə yeni Biləcəri Lokomotiv Deposunda yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, yeni depoda lokomotivlərin texniki baxışı və təmiri işləri aparılacaq. MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan bu cür deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Deponun üzərində günəş panelləri quraşdırılıb ki, alınan enerji depoda istifadə olunur. Burada zəruri infrastruktur yaradılıb, dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Deponun tikintisi "Dəyişən cərəyanla işləyən 50 lokomotiv üçün iki deponun - Biləcəri və Gəncə Lokomotiv depolarının tikintisi" layihəsi çərçivəsində həyata keçirilib. Yeni depoların nəzərdə tutulduğu dəyişəncərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. 28-i yük və 10-u sərnişin lokomotivi olmaqla 38 müasir "Alstom" lokomotivi artıq Azərbaycana gətirilib.

Ardı 2-ci səh.



◆ Zəfərin izi ilə

# Ağdam Qarabağın iqtisadi-sənaye mərkəzi olacaq

## Bir il öncə azad olunan rayon indi genişmiqyaslı quruculuq dövrünü yaşayır

**Şuşa işğaldan azad edildikdən sonra növbəti istiqamət Ağdam idi. Plana görə, Azərbaycan hərbçiləri arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcək və Ağdamı işğaldan azad edəcək idi.**

Əgər Azərbaycan əvvəl bu istiqamətdən hücuma keçsəydi, çox şəhid verəcəkdik. Çünki ermənilər Ağdamda güclü istehkam qurduğu, həmin əraziləri çox minaladıqları üçün buradan hücum etmək böyük səhv olardı.

### Ermənilərin manevr imkanlarını məhdudlaşdıran plan

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi bitdikdən sonra əməliyyat planının bəzi detallarını açıqlayaraq bildirmişdi ki, erməni ordusunun əhəmiyyətli hissəsinin orada olması üçün Azərbaycan bu istiqamətdə də kifayət qədər böyük hərbi qüvvə saxlamışdır. Azərbaycan bununla ermənilərin manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırmışdı.

Ağdamın işğaldan azad edilməsi üçün bu planın icrasına ehtiyac qalmadı. Çünki Vətən müharibəsini qələbə ilə bitirən Azərbaycanın Ermənistana kapitulyasiya aktı imzalatması nəticəsində Ağdam Azərbaycana qeyd-şərtsiz geri qaytarıldı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri arasında imzalanmış üçtərəfli Bəyanata görə, 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu ölkəmizə geri qaytarılmalı idi və qaytarıldı da.

Ardı 5-ci səh.

# Türk dünyası üçün möhtəşəm gələcək başlanır

**Ötən əsrin sonlarından başlayaraq türkdilli dövlətlərin başçılarının zirvə görüşləri ortaq mənəvi irsin qorunması və təbliği baxımından mühüm rol oynayır.**

Zirvə görüşlərinin keçirilməsi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) yaradılması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) təşkili, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) təsis edilməsi, Türk Akademiyası, Türk Mədəniyyət və Miras Fondu və Türk Biznes Şurası kimi təşkilatların qurulması eyni məqsədə xidmət edir. Bu qurumların fəaliyyəti türkdilli ölkələr arasındakı əməkdaşlıq münasibətlərini yeni təşkilati mərhələyə çatdırıb. Beləliklə, türk dövlətlərinin rəhbərləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin güclənməsinə xidmət edən sistemli fəaliyyətin əsasını qoymaqla dostluq bağlarının möhkəmlənməsinə zəmin yaratmış olublar. Əsas məramı türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdən ibarət olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da bu missiyanı yerinə yetirir. Təşkilatın noyabrın 12-də İstanbul şəhərində keçirilən VIII zirvə görüşü türk dünyasının tarixində möhtəşəm bir salnaməyə çevrildi. Tədbirin tarixi əhəmiyyəti təkcə onun türk dünyasının mənəvi mərkəzlərindən sayılan İstanbulda keçirilməsində deyildi. Eyni zamanda ötən bir neçə il ərzində şuranın əldə etdiyi parlaq nəticələrin, türk dövlətlərinin birliyi istiqamətində qazanılmış nailiyyətlərin bütün dünyaya təqdimatı baxımından önəmli idi. İstanbul görüşündə təşkilatın öz strateji məqsədlərinə doğru əzmlə addımladığı, artıq mühüm bir qlobal güc mərkəzinə çevrilməkdə olduğu göründü. Bu nailiyyətlərdə son illər Türk Şurasına rəhbərlik etmiş dövlətimizin və şəxsən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəsna xidmətləri olub. Azərbaycan Prezidentinin türk dünyasına ən böyük xidmətlərindən biri isə Vətən müharibəsində qazandığımız qələbədir.

Ardı 4-cü səh.

# İlham Əliyevin növbəti qlobal uğuru




**Azərbaycan Prezidentinin təşəbbüsü ilə COVID-19 peyvəndləri ilə bağlı irəli sürülmüş qətnamə BMT-yə üzv dövlətlər tərəfindən qəbul edilib**

Xəbər verildiyi kimi, noyabrın 18-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edilib.

Ardı 6-cı səh.

# BMT həyəcan təbili çalır

## Əfqanıstan humanitar böhranın astanasındadır, ölkədəki durum terrorizm təhdidini artırır

**Əfqanıstanda terrorizmin yayılması, həmçinin silah və narkotik alverinin artması ilə mövcud ağır iqtisadi durum getdikcə vəziyyəti daha da təhlükəli edir. Bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının iclasında müzakirə mövzusuna çevrilib.**

Ardı 8-ci səh.

# Əlilliyi olanın əlindən tutmaq sosial siyasətin əsas istiqamətlərindəndir



**Azərbaycanda aparılan iqtisadi islahatların iki əsas məqsədi var. Dövlət iqtisadi inkişafı təmin etməklə vətəndaşların sosial rifahını yaxşılaşdırmaq istəyir. Aparılan geniş sosial islahatlar da bu məqsədə xidmət edir.**

Sosial sahədə mütəmadi olaraq görülən işlər sonda vətəndaşların real həyatına müsbət təsir göstərir. Bunun nəticəsidir ki, əmək pensiyaları, müavinətlər və müxtəlif təqaüdlər ildən-ilə artırılır. Bununla yanaşı, aşağıgəlirli ailələrə verilən ünvanlı sosial yardımların da məbləği yüksəlir.

Ardı 6-cı səh.

# Dəmir yolu infrastrukturu müasirləşdirilir

## Prezident İlham Əliyev yeni Biləcəri Lokomotiv Deposunun açılışında iştirak edib







*Əvvəli 1-ci səh.*

Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksəkixtisaslı işçi çalışacaq.

Dövlət başçısı yeni deponun açılışını edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, digər sahələrdə olduğu kimi, nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində də çox böyük işlər görülüb. Ən önəmlisi odur ki, bütün bu işlər dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda həyata keçirilir. İcra olunan layihələr arasında Azərbaycanda dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, dəmir yollarında hərəkətin idarə edilməsi prosesinin müasir səviyyəyə çatdırılması, dəmir yolu nəqliyyat vasitələri parkının müasirləşdirilməsi və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər də böyük önəm daşıyır. Bu işlər "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan kimi Azərbaycanın regionda rolunu və yerini daha da möhkəmləndirir, iqtisadi və nəqliyyat-logistika potensialını əhəmiyyətli dərəcədə artırır.





Onu da qeyd edək ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi baxımından yeni Biləcəri Lokomotiv Deposu da mühüm rol oynayacaq.

## *TÜRK PA-nın Baş katibi:* "Azərbaycanın Vətən müharibəsində Zəfəri bütün türk dünyasını sevindirir"

Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 19-da Türk PA-nın Baş katibi Mehmet Süreyya Er ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Baş katibi salamlayan Sahibə Qafarova Azərbaycanın beynəlxalq təşkilatlar, xüsusilə də TÜRK PA ilə əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb, qonağa yeni vəzifədə fəaliyyətində uğurlar arzulayıb.

Sahibə Qafarova qurumda qəbul olunmuş qərarların bütün türk dünyası üçün əhəmiyyətini qeyd edərək, təşkilatın qarşısında duran hədəflərə çatmaq üçün görüləcək işlər barədə fikirlərini bölüşüb, Azərbaycanın TÜRK PA-ya sədrliyi dönəmində həyata keçirilmiş tədbirlərdən danışıb, bu təşkilatın türk birliyinə verdiyi dəstəyi yüksək qiymətləndirib.



Bildirib ki, ötən il Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində biz türk birliyinin önəmli üzvü olan Türkiyənin bu müharibədə siyasi-mənəvi dəstəyini gördük. Azərbaycan Prezidentinin dediyi kimi, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə birinə bu qədər yaxın olsun. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, ölkə ictimaiyyəti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü çərçivəsində Azərbaycan Prezidentinə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsini Müzəffər Ali Baş Komandan İlham Əliyevin xidmətlərinin birlik tərəfindən yüksək qiymətləndirilməsi, həm də Azərbaycana verilən böyük dəyər kimi qəbul edir.

Səmimi görüş üçün təşəkkürünü bildirən TÜRK PA-nın Baş katibi Mehmet Süreyya Er Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərə görə ürək sözlərini ifadə edərək bu uğurun bütün türk dünyasını sevindirdiyini deyib.

Qonaq Azərbaycanın TÜRK PA-ya sədrliyi dövründə qurumun işinə verdiyi töhfələri yüksək qiymətləndirib. Baş katib TÜRK PA-nın Beynəlxalq Katibliyinin mənzil-qərargahının Bakıda yerləşməsinə və Katibliyin inzibati binasında yaradılmış şəraitə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. O, Azərbaycanın təşəbbüsü ilə bu qurumda qəbul olunmuş qərarların bütün türk dünyası üçün əhəmiyyətini vurğulayıb. Mehmet Süreyya Er yeni vəzifəsində ümumi məqsədlərə çatmaq üçün bütün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## YAP-ın nümayəndələri Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Noyabrın 19-da Yeni Azərbaycan Partiyasının təsis olunmasının 29-cu ildönümü ilə əlaqədar partiyanın nümayəndələri Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanına gələn Yeni Azərbaycan Partiyasının üzvləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Həmçinin "Türk şəhidliyi" abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

## YAP Sədrinin müavini Tahir Budaqov Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin onlayn formatda brifinqində iştirak edib

Noyabrın 19-da XIX çağırış Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin 6-cı Plenar İclasının yekunlarına dair onlayn formatda brifinq keçirilib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dünyanın müxtəlif ölkələrinin aparıcı siyasi partiyalarının qatıldığı brifinqdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə 40 nəfərə yaxın YAP üzvü iştirak edib. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Qo Yejounun moderatorluq etdiyi tədbirdə əvvəlcə videoçarx nümayiş etdirilib.

Sonra Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao proqram xarakterli çıxış edib. Daha sonra çinli ekspertlər tərəfindən tədbir iştirakçılarına 19-cu çağırış ÇKP Mərkəzi Komitəsinin 6-cı plenar iclası ilə bağlı məlumat verilib.

Sonda ekspertlər iştirakçıların suallarını cavablandırıblar.



## Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Rusiya Ekspert Şurasının üzvləri ilə görüşüb

**Noyabrın 19-da xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Rusiya Ekspert Şurasının üzvləri ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan-Rusiya ikitərəfli gündəliyinə daxil olan məsələlər, o cümlədən qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri barədə danışıb. Ölkələr arasında ikitərəfli səviyyə ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlığın mövcud olduğu ifadə edilib.

Nazir həmçinin bölgədə mövcud olan münaqişə sonrası reallıqlar, bu xüsusda Rusiyanın oynadığı rolu, üçtərəfli bəyanatların icrası məsələləri ilə bağlı ekspertlərə məlumat verib.

Görüş zamanı nazir Ceyhun Bayramov Azərbaycan-Rusiya Ekspert Şurasının üzvlərini maraqlandıran sualları cavablandırıb.

## *Misir parlamentinin sabiq vitse-spikeri:* "Azərbaycanın qazandığı Zəfər bütövlükdə regionun inkişafına töhfə verəcək"

**Misir parlamentinin sabiq birinci vitse-spikeri, Seyyidlər İttifaqının sədri Seyyid Mahmud Şərif 8 Noyabr - Zəfər Günü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu göndərib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Seyyid Mahmud Şərif məktubunda qardaş Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə daim əmin-amanlıq və tərəqqi içində yaşamasını arzulayıb.

Sabiq birinci vitse-spiker Azərbaycan parlamentinin rəhbərinə ən səmimi arzu və təbriklərini çatdırmaqdan iftixar və məmnunluq duyduqlarını bildirib. Vurğulayıb ki, qardaş Azərbaycana beynəlxalq səviyyədə tanınmış torpaqlarını qaytaran bu Zəfər bütövlükdə regionun inkişafına töhfə verəcək.

Ölkəmizə səfərləri zamanı burada müxtəlif sahələrdə inkişafın şahidi olduğunu məmnunluqla qeyd edən Seyyid Mahmud Şərif eyni zamanda Azərbaycanda dinc yanaşı yaşayışın və plüralizm dəyərlərinin bariz nümunəsini gördüyünü, xalqlarımız arasında dərin məhəbbətin olduğunu vurğulayıb.

## *Tahir BUDAQOV:* "Yeni Azərbaycan Partiyası tarixi zərurətdən və ictimai tələblərdən yaranmış partiyadır"

"Yeni Azərbaycan Partiyası tarixi zərurətdən və ictimai tələblərdən yaranmış partiyadır. Məlumdur ki, 1990-cı illərin əvvəlində Azərbaycanın bir dövlət olaraq mövcudluğu sual altında idi. Faktiki olaraq Azərbaycan vətəndaş müharibəsi ərəfəsində idi. Ümummilli Lider Heydər Əliyevin keçmiş SSRİ rəhbərliyindən kənarlaşdırılmasından sonra sovet imperiyası tərəfindən Azərbaycana qarşı aparılan siyasət, bunun nəticəsi olaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində respublikamızda mürəkkəb vəziyyət yaranmışdı".

AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, o dövrdə Azərbaycan müstəqilliyini elan etsə də, bu, formal xarakter daşıyırdı. "Belə bir şəraitdə Azərbaycanın gələcəyi böyük sual altında idi. Respublikamızı düşdüyü bu ağır vəziyyətdən dünyamiqyaslı siyasi xadim Heydər Əliyev xilas edə bilərdi. Bu reallığı ziyalılar, mütərəqqi düşüncəli insanlar dərk edirdilər. 1992-ci ildə məşhur "91-lər"in müraciəti əsasında Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi. YAP yaranandan qısa zaman sonra müxalifət partiyasından iqtidar partiyasına çevrildi, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdaraq Azərbaycanı bütün bu bəlalardan xilas edərək inkişaf və tərəqqi yoluna çıxardı, - deyə YAP Sədrinin müavini vurğulayıb.

Bu gün YAP-ın fəaliyyətinin Heydər Əliyev ideyalarına əsaslandığını deyən partiyanın Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Heydər Əliyev siyasətinin layiqli davamçısı, Prezident İlham Əliyev partiyamızın rəhbəri kimi bu ideyaların daha da inkişaf etdirilməsi, azərbaycançılıq ideologiyasının təbliğ edilməsi, Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi yolunda daim böyük səylər göstərib.

"44 günlük Vətən müharibəsi də Heydər Əliyev yolunun Azərbaycan üçün yeganə, alternativsiz yol olduğunu bir daha təsdiqlədi. Biz bu gün Azərbaycan vətəndaşı olmağımızla qürur duyuruq. Azərbaycanın müasir inkişaf modeli, ölkəmizin tərəqqisi bir çox dövlətlər üçün də nümunə ola bilər. Xalqımız, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvləri bütün bu dövr ərzində - istər Ümummilli Lider Heydər Əliyev ətrafında, istərsə Prezident İlham Əliyev ətrafında həmişə sıx birləşib. Çünki getdiyimiz yol Azərbaycanı daim zəfərlərə aparır", - deyə YAP Sədrinin müavini qeyd edib.

# *Hikmət HACIYEV:* "Azərbaycan-Rusiya Ekspert Şurasının fəaliyyəti ikitərəfli münasibətlərin inkişafına töhfə verəcək"





**Noyabrın 19-da Bakıda Azərbaycan-Rusiya Ekspert Şurasının "Azərbaycan-Rusiya strateji tərəfdaşlığı Cənubi Qafqazda postmünaqişə dövründə inkişaf və regional əməkdaşlıq perspektivlərinin vacib amili kimi" mövzusunda ilk iclası keçirilib. Tədbir Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Rusiyanın Beynəlxalq Məsələlər Şurası tərəfindən birgə təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan-Rusiya əlaqələrinin Cənubi Qafqazda təhlükəsizliyin təminatı üçün çox mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Azərbaycan-Rusiya əlaqələrinin tarixi dərin köklərə əsaslandığını və ölkələrimiz arasında münasibətlərin strateji əməkdaşlıq xarakteri daşıdığını, bu prosesdə iki ölkənin dövlət başçılarının etibarlı dialoqunun mühüm rolunu qeyd edən Hikmət Hacıyev iclas iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan tarixi torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa edib və münaqişəyə son qoyulub. Üçtərəfli Bəyanatın əhəmiyyətindən danışan Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Zəfəri ilə regionda yeni reallıq yaradıb.

Ölkələrimiz arasında qarşılıqlı fəal əməkdaşlıqdan danışan Azərbaycan Prezidentinin köməkçisi bildirib ki, indiki münasibətlərimiz Azərbaycanın və Rusiyanın tarixi ənənələrinə uyğundur. Azərbaycan-Rusiya Ekspert Şurasının ikitərəfli münasibətlərin dərinləşməsində böyük rolunu qeyd edən Hikmət Hacıyev Azərbaycan və Rusiya ekspertlərinin əməkdaşlığına üçüncü tərəfin də qoşulacağına inamını ifadə edib.

Ekspertlər Şurasının iclasına videoformatda qoşulan Rusiya Beynəlxalq Məsələlər Şurasının Baş direktoru Andrey Kortunov deyib: "Azərbaycan-Rusiya Ekspert Şurasının formatı açıq diplomatiyanın bir növü kimi iki ölkə arasında əlaqələrin inkişafına töhfə verir. Düşünürəm ki, ölkələrimiz arasında qarşılıqlı anlaşmanın, etimadın möhkəmləndirilməsi hazırkı şəraitdə daha mühüm əhəmiyyət kəsb edir.

Rus dilinin xalqlarımız arasında anlaşma dili olmasından məmnunluğunu ifadə edən Andrey Kortunov bildirib ki, Qafqaz bizim üçün həmişə ortaq məkan olub və belə də olacaq. Qafqaz xalqları öz qonaqpərvərlikləri ilə həmişə fərqləniblər. Yüz illər ərzində Qafqazda qapalı sistemin mövcudluğu çoxəsrlik problemlərdən biridir: "Region diqqət mərkəzində saxlanılmalı və əməkdaşlığımızın hüdudları genişlənməlidir".

Qarşılıqlı münasibətlərdə konstruktivliyin əhəmiyyətindən danışan Andrey Kortunov obrazlı şəkildə deyib: "Azərbaycan və Rusiya zamanın və dünyanın axınında eyni gəmidə üzürlər". Dünyanın nəhəng güclərindən olan Çinin Rusiya və Azərbaycanla əlaqələrindən bəhs edən Kortunov qeyd edib ki, pandemiyadan sonra əməkdaşlıqda marağı olan ölkələr arasında münasibətlərin yeni dinamikası hiss olunur.

"Azərbaycan-Rusiya əlaqələrinin inkişafı və mehriban münasibətlər regionda sabitliyin və təhlükəsizliyin təminatına imkan verir", - deyən Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında nəqliyyat və kommunikasiyaların yenidən qurulması işi aparılır. 3+3 formatının əhəmiyyətindən danışan rusiyalı səfir Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya məsələlərinin həll edilməsinin vacibliyini vurğulayıb.

Səfir Rusiya-Azərbaycan Ekspert Şurasının iclası və onun nəticələri ölkələrimiz arasında əlaqələrin daha da inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. Ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsinin vacibliyini diqqətə çatdıran Mixail Boçarnikov ekspert rəyinin ikitərəfli münasibətlərdə mühüm amillərdən biri olduğunu qeyd edib.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov üçtərəfli Bəyanatın şərtlərinin yerinə yetirilməsinin regionda təhlükəsizlik və əməkdaşlıq üçün çox mühüm olduğunu və Azərbaycanın və Rusiyanın bu məsələdə maraqlarının üst-üstə düşdüyünü bildirib.

Azərbaycan-Rusiya Ekspert Şurasının iclasının ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyindən əminliyini ifadə edən Elşad İskəndərov deyib: "Regiondakı yeni reallıq yeni yanaşmalar tələb edir. Cənubi Qafqazın inkişaf edən regiona çevrilməsi bizdən asılıdır. Nəqliyyat və kommunikasiya şəbəkəsinin qurulması Avropa və Asiya ilə körpünün yaradılmasında çox əhəmiyyətlidir və bu da maraqlı tərəflərin iqtisadiyyatına, inkişafına mühüm töhfə verəcək".

O, həmçinin bildirib ki, Azərbaycan-Rusiya əlaqələri iki ölkə liderləri arasındakı qarşılıqlı etimada və dostluq münasibətlərinə əsaslanır.

İki ölkə arasında yaxın münasibətlərdən danışan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) sədri Fərid Şəfiyev Azərbaycan ilə Ermənistan arasında gərginliyin nizama salınmasında Rusiyanın dəstəyini qeyd edib. Bildirilib ki, Azərbaycan-Rusiya Ekspert Şurasının ilk iclasının keçirilməsi yenilikdir və ümid edirik ki, bugünkü toplantı Azərbaycan-Rusiya əlaqələrinin sonrakı inkişafına öz töhfəsini verəcək. Şura iki ölkənin ekspertləri arasında beynəlxalq münasibətlər üzrə fikir mübadiləsinin aparılmasında platforma rolunu oynayır.

Panel müzakirələri formatında davam edən Şuranın iclasında Azərbaycan və Rusiyanın ekspert mərkəzlərinin aparıcı nümayəndələri ikitərəfli münasibətlərin müxtəlif aspektləri, regional təhlükəsizlik problemləri, qlobal çağırışlar fonunda əməkdaşlıq və iki dövlətin gündəmində olan digər aktual məsələlərə dair təqdimatlar ediblər, fikir mübadiləsi aparıblar. Azərbaycanın 44 günlük müharibədə qazandığı Qələbə və Qarabağ münaqişəsinə son qoyulması ilə Cənubi Qafqaz regionunda formalaşmış yeni reallıqlar şəraitində Rusiya-Azərbaycan münasibətlərinin indiki vəziyyəti və perspektivləri müzakirə olunub.

Çıxışlarda həmçinin Azərbaycan-Ermənistan sərhədində yaranmış gərginlik mövzusuna toxunularaq, regionda yeni hərbi eskalasiyasının yolverilməzliyi qeyd edilib. Eyni zamanda Rusiya və Azərbaycanın regionda uzunmüddətli sabitlik konfiqurasiyasının qurulmasında maraqlı olduqları vurğulanıb.

Müzakirələrdə Rusiya Federasiyasının, Azərbaycan Respublikasının prezidentləri və Ermənistanın baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarında müəyyən olunmuş məsələlərin gecikmədən həllinin zəruriliyi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan və Ermənistanın beynəlxalq tanınmış sərhədlərinin delimitasiyası və demarkasiyası prosesinin tez bir zamanda başlanılması postmünaqişə gərginliyinin deeskalasiyası üçün alternativi olmayan addımdır. Həmçinin regionda uzunmüddətli sülh üçün dayanıqlı əsas təşkil edən üçtərəfli bəyanatların icrasına mane olmağa yönələn regionxarici aktorların destruktiv təsirinin yolverilməzliyi vurğulanıb.

Ekspert Şurasının üzvləri Azərbaycanla Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində iki ölkənin strateji tərəfdaşlığının möhkəmləndirilməsində ekspert ictimaiyyətinin əməkdaşlığının mühüm rolunu qeyd ediblər.

Tədbirin sonunda Azərbaycan-Rusiya Ekspert Şurasının fəaliyyətinin daimi əsaslarla həyata keçirilməsini ehtiva edən kommünike imzalanıb.

# "Dubay Ekspo-2020"dəki Azərbaycan pavilyonunda Milli gün qeyd edilib








**Milli gün çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri Abdulla bin Tuq Əl Marri ilə Azərbaycan nümayəndə heyətinin görüşü keçirilib. Görüşdə nazir "Dubay Ekspo-2020"yə göstərilən dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib, ikitərəfli əlaqələr, ölkəmizdə investisiya istiqamətlərinin genişləndirilməsi məsələləri müzakirə edilib.**





Daha sonra "Dubay Ekspo-2020"dəki "Al Wasl Plaza" meydanında rəsmi mərasim keçirilib. BƏƏ-nin və Azərbaycanın Dövlət himnləri səsləndirilib, dövlət bayraqları qaldırılıb.

Tədbiri açan "Dubay Ekspo-2020"nin icraçı rəhbəri Issam Kazım sərgi çərçivəsində təşkil olunan Milli gün münasibətilə təbriklərini çatdırıb. O, ölkəmizin bu mötəbər tədbirdə iştirakını yüksək qiymətləndirib, Azərbaycan ilə BƏƏ arasında geniş iqtisadi və mədəni əlaqələrdən bəhs edib.

"Dubay Ekspo-2020"nin Azərbaycan üzrə baş komissarı, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin "Ekspo-2020" sərgisini yüksək səviyyədə təşkil etdiklərinə görə Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə və xalqına təbriklərini çatdırıb. Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan ortaq mədəni, tarixi və dini dəyərlərə malik olan BƏƏ ilə dostluq əlaqələrinin inkişafına böyük əhəmiyyət verir. Gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi tamam olur. Hazırda Azərbaycan və BƏƏ arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlıq mövcuddur. Ölkəmiz BƏƏ vətəndaşları üçün əsas turizm məkanlarından biridir, həmçinin iqtisadi və investisiya sahələrində əlaqələr inkişaf edir.

Tədbirdə Birləşmiş Ərəb Əmirliklərindən olan şirkətlər işğaldan azad olunan ərazilərimizdə bərpa-quruculuq, o cümlədən tarixi-mədəni abidələrin bərpası istiqamətində işlərdə fəal iştiraka dəvət edilib.

Ölkəmiz sərgidə Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Gələcəyin toxumları" (Seeds for the Future) mövzusu ilə çıxış edir. Ölkəmizin "Ekspo" sərgisində layiqincə iştirakına Birinci vitse-prezident Mehriban Əliyeva xüsusi diqqət ayırıb və Azərbaycan "Dubay Ekspo-2020" sərgisində milli pavilyonun tikinti işlərinə başlayan ilk ölkələrdən olub.

"Sabahın inkişafı bu gün verilən qərarlardan asılıdır" konsepsiyasını özündə əks etdirən milli pavilyondakı interaktiv elektron vasitələrdə Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı iqtisadi və sosial sahələrdə davamlı inkişaf və innovasiyalar, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri haqqında məlumat verilir. Üçmərtəbəli, ağac və onun budaqları formasını xatırladan pavilyonun konsepsiyası təsdiq edir ki, yalnız insan kapitalının inkişafı ilə dayanıqlı gələcəyə nail olmaq mümkündür.

Daha sonra qonaqlar Azərbaycanın və BƏƏ-nin milli pavilyonları ilə tanış olublar.

Qeyd edək ki, pavilyonun landşaftı Azərbaycan və digər ölkələrdən olan rəssamların "Xarıbülbül" və "Ceyranlar" silsiləsindən heykəltaraşlıq əsərləri ilə bəzədilib. Burada həmçinin Azərbaycan mədəniyyətinə və tarixinə aid ekspozisiya, heykəltaraş Elvin Nəbizadənin "Kövrək saz" instalyasiyası, Leyla Əliyevanın "Ürək" heykəltaraşlıq əsəri, Faiq Əhmədin xalça motivlərində instalyasiyası da təqdim edilir.

Eyni zamanda təbiətdən ilhamlanaraq yaradılan pavilyonun dizaynı və konsepsiyası özünəməxsusluğu ilə seçilir və eksponun ən çox ziyarət edilən pavilyonları sırasında yer alır. Milli pavilyonda gün ərzində 10 mindən çox ziyarətçi olur. Sərgi çərçivəsində pavilyonun səhnəsində mütəmadi olaraq konsertlər və müxtəlif mədəni proqramlar təşkil edilir, ziyarətçilərə Azərbaycanın tarixi və bugünkü həyatını yaxından izləmək imkanları yaradılır.

Xatırladaq ki, ekspo tədbirlərinə xüsusi önəm verən ölkəmiz bundan əvvəl Milan, Antalya, Astana, Pekin kimi şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə uğurla iştirak edərək yüksək mükafatlara layiq görülüb. Bu beynəlxalq platformada uğurlu iştirakı ilə seçilən ölkəmiz, həmçinin 2025-ci ildə keçiriləcək ümumdünya ekspo sərgisinə namizədliyini irəli sürüb.

***AZƏRTAC***

# "Zəfər yolu" inşa müsabiqəsinin qalibləri mükafatlandırılıb

Noyabrın 19-da Təhsil Nazirliyi, Heydər Əliyev Fondu və Qarabağ Dirçəliş Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Zəfər yolu" inşa müsabiqəsinin qalibləri mükafatlandırılıb.










AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının şagirdlərinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov diqqətə çatdırıb ki, Zəfərimiz tariximizin ən yaddaqalan səhifəsi kimi əsrlər boyu yaşayacaq. Bu Qələbə gələcək nəsillərə kitablar, filmlər vasitəsilə çatdırılacaq. Bugünkü nəslin xoşbəxtliyi ondadır ki, Zəfərin qazanılmasının birbaşa iştirakçısı, şahidləri oldular. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 30 ilə yaxın müddətdə erməni işğalında olan torpaqlarımızı azad etdi. Bu Qələbə bizim qürur mənbəyimizdir, tariximizin parlaq səhifəsidir. Torpaqlarımızın işğal olunmasını indiki məktəblilər öz gözləri ilə görməyiblər. Həmin ağrılı-acılı illər, ermənilərin törətdikləri vəhşiliklər haqqında valideynlərindən, kitablardan biliklər əldə ediblər. 30 ilə yaxın davam edən işğal dövründə Azərbaycan dövləti, xalqı münaqişəni qan tökmədən həll etməyə çalışdı. Münaqişənin həllini öz üzərinə götürən beynəlxalq təşkilatların fəaliyyətsizliyindən yorulan Azərbaycan torpaqlarını hərb yolu ilə işğaldan azad etdi. İndi hər bir Azərbaycan vətəndaşı qalib xalqın qalib vətəndaşı kimi bu Zəfərlə fəxr edir. Baş nazirin müavini Əli Əhmədov məktəblilər arasında keçirilən "Zəfər yolu" müsabiqəsini yüksək qiymətləndirib. Təhsil sahəsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, bugünkü gənc nəsildən əsas gözləntilər daha dərin, müasir bilik və bacarıqlara yiyələnmələri, mükəmməl vərdişlərə sahib olmaları, bununla da Azərbaycanın inkişafı üçün töhfə verə biləcək, layiqli bir vətəndaş kimi yetişmələrindən ibarətdir.

Təhsil naziri Emin Əmrullayev bildirib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti və müzəffər ordumuzun şücaəti nəticəsində möhtəşəm Zəfərin qazanılması ilə Azərbaycan təhsilində yeni bir səhifə açıldı və bu səhifənin mahiyyəti təhsilin istiqamətini dəyişdi.

Emin Əmrullayev qeyd edib ki, təhsil sisteminin əsas məqsədlərindən biri şagirdlərdə təkcə bilik və bacarıqları deyil, həm də hər kəs üçün müqəddəs olan vahid dəyərləri formalaşdırmaqdır. Bu il tədris sisteminin məzmun və mahiyyətinin Zəfərə həsr olunduğunu bir daha diqqətə çatdıran nazir bu istiqamətdə Təhsil Nazirliyi tərəfindən görülən işlərdən danışıb. "Zəfər tarixi" dərsliyindən söz açan Emin Əmrullayev bildirib ki, bu dərsdənkənar məşğələlər Azərbaycanın təhsil məzmununda özünəməxsus yer tutacaq.

Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Aslanov vurğulayıb ki, 2020-ci il Azərbaycan tarixinə Zəfər ili olaraq qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 30 illik işğala son qoyuldu. 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda təntənə ilə qeyd olundu. Zəfər günü ilə bağlı Heydər Əliyev Fondu tərəfindən də bir sıra tədbirlər həyata keçirildi. İşğal dövründə mənfur düşmənimiz regionun təbiətinə, biomüxtəlifliyinə, bütövlükdə ekosistemə ciddi ziyan vurub, ekoloji terror törədib. Bu səbəbdən Zəfər gününə həsr olunan silsilə tədbirlər çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri Topxana meşəsində ağacəkmə aksiyası keçirdilər. Aksiya zamanı 3 hektar ərazidə yüzlərlə ağac əkildi, palıd toxumu səpildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən 44 min ağac əkilməsi aksiyası çərçivəsində işğaldan azad olunmuş ərazilərdə ağaclar əkildi. "Regional İnkişaf" İctimai Birliyi Təhsil Nazirliyi ilə birgə 3 minə yaxın könüllü gəncin iştirakı ilə fləş-mob keçirdi. Heydər Əliyev Fondu həm də məktəblilər arasında keçirilən "Zəfər yolu" inşa müsabiqəsinin təşkilatçılarından biri oldu. O, qeyd edib ki, zəfərimizin gələcək nəsillərə çatdırılmasında, şagirdlərimizin vətənpərvərlik ruhunda böyüməsində inşa müsabiqəsinin böyük əhəmiyyəti var.

"Zəfər yolu" inşa müsabiqəsinin qaliblərindən biri, II Qarabağ müharibəsinin iştirakçısı şəhid mayor Sübhi Mürsəliyevin qızı, İsmayıllı şəhəri 5 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Aişə Mürsəliyeva müsabiqə ilə bağlı təəssüratlarını bölüşüb.

Cəlilabad rayonu, Sabirabad kənd 2 nömrəli tam orta məktəbin tarix müəllimi Elçin Ələkbərov 44 günlük Vətən müharibəsindən, Zəfərə aparan yoldan bəhs edib.

Qeyd edək ki, "Zəfər yolu" inşa müsabiqəsi Azərbaycan Respublikası təhsil nazirinin əmrinə əsasən, ölkənin işğal altında olan ərazilərinin azad edilməsində dövlətimizin əldə etdiyi nailiyyətlərin təbliğinin aparılması, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Qələbəsi barədə şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, Zəfər gününün ölkənin təhsil müəssisələrində yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədilə Heydər Əliyev Fondu və Qarabağ Dirçəliş Fondu ilə tərəfdaşlıqda təşkil edilib. Müsabiqə iki mərhələdən - rayon (şəhər) və ölkə mərhələlərindən ibarət olub. Müsabiqədə ölkəmizin bütün məktəbləri iştirak edib. Rayon (şəhər) mərhələsinə ümumilikdə 3 min 556 şagird qatılıb. Respublika mərhələsinə 106 şagird keçib. İnşa yazıları müvafiq meyarlara əsasən münsiflər heyəti tərəfindən qiymətləndirilib. Qiymətləndirmənin nəticələrinə görə, 7 nəfər I yer, 8 nəfər II yer, 15 nəfər isə III yer olmaqla ümumilikdə 30 nəfər şagird qalib elan edilib. Qalib şagirdlərə hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

# YAP Mərkəzi Aparatında "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda konfrans keçirilib

**Noyabrın 19-da YAP Mərkəzi Aparatında Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümünə həsr edilmiş "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda konfrans keçirilib.**









AZƏRTAC xəbər verir ki, konfransda əvvəlcə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun təklifi ilə müasir, müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının - şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tahir Budaqov bildirib ki, müasir, müstəqil Azərbaycan dövləti bugünkü inkişaf, intibah, yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb. Müstəqilliyin ilk illərinin ictimai-siyasi proseslərinə, ümumi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz lider amili, onun qətiyyəti və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik olan və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən biri hesab edilən hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. YAP siyasi zərurətdən və ictimai tələb əsasında yaranmış partiyadır. O zaman Azərbaycanda hakimiyyətin milli maraqlara zidd siyasəti nəticəsində ölkədə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürür, respublikamız regional və beynəlxalq səviyyədə, demək olar ki, geosiyasi təcrid vəziyyətində idi. Bütün bunlar hətta Azərbaycanın formal xarakter daşıyan müstəqilliyinin itirilməsi təhlükəsini aktuallaşdırmışdı. Belə bir şəraitdə Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. Məhz bundan sonra 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, Ulu Öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi ölkəmizin parlaq gələcəyini müəyyənləşdirən çox mühüm - əlamətdar hadisə oldu.

YAP Sədrinin müavini qeyd edib ki, güclü Lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində siyasi səhnədə layiqli yer tutdu və xalqı öz ətrafında sıx birləşdirdi: "Bu, təsadüfi deyildi. Çünki Ümummilli Lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının fəaliyyət konsepsiyasını və prioritetlərini məhz dövrün çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirdi, YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrildi. Digər tərəfdən, Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inam və etimadı Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində yüksəlişini təmin edən mühüm faktorlardan birinə çevrildi. Partiyamız qısa müddət ərzində Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gələrək ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi.

Hələ yarandığı ilk vaxtlarda öz məqsədyönlü, nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydalarını və normalarını müəyyənləşdirən Yeni Azərbaycan Partiyası yeni siyasi mədəniyyət nümunəsi ortaya qoydu. YAP nümayiş etdirdi ki, müxalifətçilik dövlətin maraqlarına zidd mövqe tutmaq deyil və iqtidar partiyası kimi fəaliyyət göstərmək, hər şeydən əvvəl, məhz xalqa xidmət göstərmək, onun mənafeyini qorumaq prinsiplərinə əsaslanmalıdır".

Qeyd olunub ki, Ümummilli Liderin siyasi mirası olan YAP ötən 29 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmiş, siyasi ləyaqət etalonu yaratmışdır. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, Heydər Əliyev ideyaları əsasında tarixi təşəbbüslərə və nailiyyətlərə imza atmışdır. Məhz bunun nəticəsidir ki, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nüfuzu davamlı olaraq artır. Sıralarında 800 minə yaxın vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi bunun bariz nümunəsi - real təsdiqidir. Azərbaycan Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".

Vurğulanıb ki, ümumxalq partiyası olan YAP-ın fəaliyyətinin səmərəliliyini təmin edən vacib faktorlardan biri partiyanın davamlı islahatlar çərçivəsində təkmilləşməsidir: "Xüsusilə də partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Xüsusi vurğulamaq gərəkdir ki, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, YAP-ın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir və şübhəsiz ki, onun birinci müavin kimi fəaliyyəti ölkəmizin və partiyamızın daha da güclənməsinə xidmət edəcəkdir".

Azərbaycanın milli tərəqqinin yeni mərhələsinə qədəm qoyduğunu deyən YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, Azərbaycan mühüm strateji təklif və təşəbbüslərlə çıxış edən, qətiyyətli mövqeyini davam etdirən qalib Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar regionda, türk dünyasında və qlobal miqyasda yüksək dəyərləndirilir: "Yeri gəlmişkən, Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması da bu baxımdan əlamətdardır. Bu, cənab İlham Əliyevin müdrik Lider, qətiyyətli dövlət başçısı və Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsinin, onun qlobal problemlərlə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələrinin, Türk Şurası, BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ümumbəşəri xarakter daşıyan təşəbbüslərinin dünya miqyasında olduqca yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

Ümumiyyətlə, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Bu baxımdan xüsusi vurğulamaq istəyirəm ki, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII Qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə imkan yaradacaqdır. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar fonunda dövlətin qətiyyətli siyasətinə, xalqın həmrəyliyinə paralel olaraq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və yeni strateji zirvələr fəth etməsinə layiqli töhfəsini verəcəkdir!"

Tahir Budaqov YAP-ın təsis edilməsinin 29-cu ildönümü münasibətilə bütün partiya üzvlərini təbrik edib, Heydər Əliyev yolu naminə fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda "Ulu Öndərin xilaskarlıq missiyası" mövzusunda çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov bu əlamətdar gün münasibətilə partiyanın Sədri, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevi və bütün partiya üzvlərini təbrik edib. YAP-ın yaradılmasının Azərbaycanın müasir tarixinin möhtəşəm və ən əlamətdar hadisələrindən biri olduğunu deyən Əli Əhmədov qeyd edib ki, 29 il bundan əvvəl yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan o zaman ölkəyə rəhbərlik edənlərin bacarıqsızlığı və bağışlanmaz səhvləri ucbatından ağır böhran içərisində boğulur, ölkədə qeyri-sabitlik tüğyan edir, torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu. O bildirib: "Azərbaycan vətəndaşları əmin idilər ki, cəmiyyətimizin özünəqayıdışının təmin edilməsi qüdrətli şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində mümkün ola bilər. Bu da Azərbaycanı məhv olmaqdan xilas etmək üçün Yeni Azərbaycan Partiyasının yaranması vasitəsilə Heydər Əliyevin hakimiyyətə qayıtmasını təmin etməkdən ibarət idi. Buna görə də 29 il əvvəl Yeni Azərbaycan Partiyasının təsis olunmasını Azərbaycan cəmiyyəti, əslində, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının başlanğıcı, bununla əlaqədar yaranmış böyük xalq hərəkatı kimi dərk edir. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası təsis ediləndən təxminən yarım il sonra partiyanın yaradıcısı və Sədri Heydər Əliyev xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə qayıtdı, bununla da Azərbaycan böhrandan xilas olmaq imkanı qazandı. Azərbaycan tarixinin yeni mərhələsi başlandı. İlk növbədə, böhran, qeyri-sabitlik cilovlandı, genişmiqyaslı və hərtərəfli islahatlar nəticəsində böyük bir inkişaf strategiyasına start verildi. Bu inkişaf strategiyası nəticəsində mühüm nəticələr əldə olundu. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda çox ciddi iqtisadi, sosial inkişaf baş verdi, ölkəmizin siması bütövlükdə yeniləndi. Bu strategiya 30 ilə yaxın işğal altında olan torpaqlarımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən azad edilməsi ilə nəticələndi. Düşünürəm ki, Yeni Azərbaycan Partiyası uğurlu taleyi olan siyasi təşkilat hesab edilə bilər. Eyni zamanda YAP iqtidarı qısa müddət ərzində Azərbaycanı dünyada ən uğurlu gənc dövlətə çevirdi".

Bütün bu nailiyyətlərin bir partiyanın öz tarixi missiyasını və xalq qarşısında öz üzərinə götürdüyü öhdəlikləri layiqincə, ləyaqətlə yerinə yetirməsinə sübut kimi qiymətləndirilə biləcəyini deyən YAP Sədrinin müavini qeyd edib: "Yeni Azərbaycan Partiyası indiyə kimi qalibiyyətlər, qələbələr, zəfərlər partiyası kimi fəaliyyət göstərib və onun bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşayiət olunacaq. Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edəcək".

YAP Veteranlar Şurasının üzvü Şahlar Əsgərov isə "Yeni Azərbaycan Partiyasının təsis edilməsinə tarixi zərurət prizmasından baxış" mövzusunda çıxış edib. 1990-cı illərin əvvəlində ölkədə mürəkkəb proseslərin baş verdiyini deyən Ş.Əsgərov bildirib ki, respublikamızda hökm sürən qeyri-sabitlik, tənəzzül ziyalıları ciddi narahat edirdi. "Hamı bilirdi ki, Azərbaycanı Heydər Əliyev kimi böyük dövlət xadimi xilas edə bilər. İnsanların ürəyində Heydər Əliyevə böyük sevgi var idi. Belə bir şəraitdə bir qrup ziyalı olaraq qərara gəldik ki, vəziyyətlə əlaqədar Heydər Əliyevə müraciət edək. "91-lər"in müraciətinin adı belə idi: "Azərbaycan Sizin sözünüzü gözləyir". Heydər Əliyev bu məktuba bir neçə gün sonra cavab verdi. Həmin cavab məktubu Azərbaycanın gələcəyinə baxış idi. Heydər Əliyev partiya yaradılmasına razılıq verdikdən sonra isə YAP-ın təsis edilməsi ilə bağlı işlərə başlanıldı. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Altı aya yaxın müddətdə partiyaya 60 minə yaxın insan üzv olmuşdu. Bunun səbəbi isə partiyaya Heydər Əliyev kimi böyük şəxsiyyətin rəhbərlik etməsi idi. O zaman insanlar bu partiyaya "Heydər Əliyev partiyası" deyirdilər. Biz partiyanı yaradanda imkanlarımız, ofisimiz demək olar ki, yox idi. İndi isə YAP böyük gücə çevrilib, onun 800 minə yaxın üzvü var. Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız böyük uğurlara imza atır", - deyə o, qeyd edib.

Tədbirdə "Azərbaycançılıq fəlsəfəsinin müəllifi" mövzusunda çıxış edən YAP İdarə Heyətinin üzvü Elmar Qasımov bildirib ki, hər bir dövlətin ərazi, iqtisadi, milli əsasları olduğu kimi, ideoloji əsasları da olmalıdır. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq fəlsəfəsinin əsaslarını hələ sovet dövründə müəyyən edib. 1978-ci ildə Ulu Öndərin qətiyyəti nəticəsində Azərbaycan dili dövlət dili kimi Azərbaycan SSR-in Konstitusiyasına daxil edildi. Bu və digər addımlar azərbaycançılıq fəlsəfəsini özündə aydın şəkildə ifadə edirdi.

E.Qasımovun sözlərinə görə, 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyini xilas etməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşdirilməsinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü milli ideya ölkəmizin bütün vətəndaşlarını, dünya azərbaycanlılarını və Azərbaycana bağlı bütün insanları bir məqsəd, bir ideya ətrafında birləşdirə bildi. Bu, vahid bir dövlətin formalaşmasında müasir, güclü Azərbaycan ölkəsinin yaranmasında ən böyük rola malik olan azərbaycançılıq ideyası idi. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Ulu Öndər Heydər Əliyev azərbaycançılığı milli ideyaya çevirməklə ölkənin daxilində yaşayan onlarca xalqı bu ideyanın ətrafında birləşdirməyə, milli, etnik ayrı-seçkiliyin aradan qaldırılmasına, ölkədə ictimai-siyasi sabitliyi yaratmağa, dövlətin inkişaf konsepsiyasını qurmağa nail oldu. Məhz bu ideologiya ətrafında sıx birləşən Azərbaycan xalqı vahid ideya-dövlətin inkişafı ideyasını prioritet olaraq qarşısına qoydu və bütün enerjisini bu istiqamətə yönəltdi. Bu, həm də müasir, qloballaşan dünyada milli kimliyimizin tanınması istiqamətində mühüm addım idi".

YAP İdarə Heyətinin üzvü bu gün Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bu yolu uğurla davam etdirdiyini vurğulayıb.

Konfransda YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova "Müasir müstəqil Azərbaycan Heydər Əliyevin şah əseridir" mövzusunda çıxış edib. S.Qasımova bildirib ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra dövlət müstəqilliyi qorunub saxlanıldı, müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi geniş vüsət aldı, ölüm hökmü və senzura ləğv edildi, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, milli-mənəvi sərvətlərimizə, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı. O, qeyd edib ki, bu gün üzvü olduğumuz Yeni Azərbaycan Partiyası minlərlə Azərbaycan vətəndaşını öz ətrafında birləşdirərək dövlətin siyasi sütunu rolunda çıxış edir. Partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası zamanın tələbinə uyğun olaraq həm kəmiyyət, həm də keyfiyyət baxımından böyüyür, müasirləşir və güclənir. Bu şərəfli işdə biz gənclərin də iştirak etməsi bizim üçün olduqca qürurvericidir.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbirdə partiyanın 29 ildə keçdiyi şərəfli yola nəzər salındığını bildirib. Onun sözlərinə görə, YAP xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib. "Bu gün partiyamızın gücü Heydər Əliyev ideyalarından, eyni zamanda Ulu Öndər siyasətinin ən layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan partiyamızın Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm gələcəyə doğru daha inamla irəliləyəcək", - deyə o, əlavə edib.

YAP-da nəsillərarası varislik prinsipinə önəm verildiyini deyən Tahir Budaqov mürəkkəb bir dövrdə partiyanın yaranmasında iştirak edən, təzyiqlərə rəğmən cəsarət nümayiş etdirərək Heydər Əliyev naminə mübarizə aparan "91-lər"ə hər zaman hörmət və ehtiram göstərildiyini söyləyib. O, qeyd edib ki, 91 ziyalının başladığı yol bu gün uğurla davam etdirilir, Prezident İlham Əliyev böyük inam və qətiyyətlə Azərbaycanı daha böyük zəfərlərə doğru aparır.

Tədbir iştirakçıları "91-lər"i alqışlayıblar.

Sonda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunmuş YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadəyə "Şərəf" ordenini və Veteranlar Şurasının üzvü Misir Mərdanova 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini təqdim edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Arif Rəhimzadə və Misir Mərdanov çıxış edərək göstərdiyi etimada görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

# Türk dünyası üçün möhtəşəm gələcək başlanır

*Əvvəli 1-ci səh.*

Bununla bölgədə davamlı sülhə və sabitliyə yol açılmışdır. Uzun illərdən sonra türk dünyasının coğrafi birliyi üçün yeni tarixi reallıqlar yaradılmışdır. Bu tarixi xidmətləri nəzərə alaraq İstanbul zirvəsində dövlət başçısı İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görüldü. Ali Ordeni Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdim etdi. Dövlət rəhbərimizin bu ali mükafata layiq görülməsi təklifi də məhz Türkiyə Respublikasının Prezidentindən gəlmişdir. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin imzaladığı qərarda bununla bağlı yazılır: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".

## "Xarıbülbül" - türk dünyası üçün Zəfərin müjdəçisi

Ali mükafatı Azərbaycan Prezidentinə təqdim edərkən Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, Qarabağda təxminən otuz il davam edən işğala Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə 44 gündə son qoyulması bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilib. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk edib. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk aləminin birliyini və bərabərliyini genişləndirib. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olub. "Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb", - deyə cənab Rəcəb Tayyib Ərdoğan bəyan edib.

İstanbul zirvəsinin əhəmiyyəti həm də bundadır ki, Şuraya sədrlik son onilliklərdə qoşa qanad kimi türk dünyasının birliyi üçün çalışan, bütün bəşəriyyətə qardaşlığın, qarşılıqlı inamın, güvənin, xoş gündə də, dar məqamlarda da bir-birinə həyan olmağın nümunəsini göstərən Azərbaycan və Türkiyənin birindən digərinə ötürüldü. Sədrlik qurumun son illərdəki tarixi nailiyyətləri və növbəti uğurlar üçün formalaşdırılmış möhkəm əsaslarla Azərbaycandan Türkiyəyə keçdi. Bundan sonrakı mərhələlərdə də hər iki ölkə bu qurumda bir araya gələn digər dövlətlərin dəstəyi, irəli sürülən təşəbbüslərin yerinə yetirilməsində fəal iştirakı ilə türk dünyası adına böyük töhfələr verəcəklər. Bu, minilliklər əvvəldən başlanmış ortaq tariximizin türk dövlətləri üzərinə qoyduğu müqəddəs strateji missiyadır. Azərbaycan və Türkiyə bu missiyanı müasir dövrümüzdə yenidən aktuallaşdıraraq keçmişdən gələcəyə daşıyır və digər türk dövlətlərini də onun işığında bir araya gətirir.

## Möhkəm təməllər

Tarixə ekskurs edərək yada salaq ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixdə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Buna qədər müxtəlif illərdə türkdilli ölkələrin dövlət başçılarının görüşləri keçirilmişdi. İlk belə görüş 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada təşkil olunmuşdu. Naxçıvan Sazişi isə 2009-cu ilin oktyabrından başlayaraq türk dövlətləri arasında əməkdaşlığın təsisatlanmış yeni formatının əsasını qoydu və türk dünyasının birliyinə doğru tarixi bir səhifə açdı. Naxçıvan zirvəsindəki çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev türk dövlətləri arasında sosial-iqtisadi, mədəni sahədə əməkdaşıq üzrə qazanılmış uğurlara toxunmuş, münasibətlərin inkişafı və bundan əldə ediləcək faydalarla bağlı strateji baxışlarını ortaya qoymuşdu. Dövlət rəhbərimiz qeyd etmişdi ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Əgər türk dövlətləri birlikdə olsalar, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsələr və bu birlik mütəmadi işlərlə möhkəmləndirilsə, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaq.

Bu möhtəşəm qurumun çərçivəsində həyata keçirilən tədbirlər, möhkəmlənən əməkdaşlıqlar da türk dövlətlərinin birliyi üçün formalaşdırılan ümumi geostrateji mənzərənin mühüm bir parçasıdır. Təşkilatın əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi bu qurumun əsas məqsədləridir.

Türk dövlətlərinin birliyi kiminsə marağına toxunan, hansısa ölkələrin imkanlarını məhdudlaşdıran, yaxud milli zəmində ayrı-seçkiliyə yol açan təşəbbüs deyil. Əksinə, qurumun məqsədlərindən də göründüyü kimi, burada əsas niyyət bəşəriyyətə xidmətdir. Sülhə, davamlı inkişafa töhfə verməkdir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına çalışmaqdır.

## Səmərəli keçən 2 il

Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Onları birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ökələrimizin qarşılıqlı səmərəli fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycanın son iki il ərzində Türk Şurasına sədrliyi kifayət qədər uğurlu olmuşdur. Yada salaq ki, sədrlik Azərbaycana qurumun 2019-cu ilin 15 oktyabrında Bakıda təşkil olunmuş VII Zirvə Görüşündən sonra keçdi. Ötən müddət COVID-19 pandemiyası dövrünə təsadüf etsə də, bu iki ildə təşkilat çərçivəsində mövcud istiqamətlərə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri quruldu.

2020-ci il aprelin 10-da Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə Görüşü keçirildi. Dövlət başçıları bəşəriyyəti ağır sınaqlarla üz-üzə qoyan bu xəstəliklə mübarizə çərçivəsində birgə tədbirlərə dair fikir mübadiləsi apardılar. Qarşıya qoyulan hədəflər müzakirə edildi. Yekunda isə Bakı Bəyannaməsi qəbul olundu.

Türkdilli dövlətlər arasında media sahəsində əməkdaşlıq da olduqca önəmlidir. Belə ki, artıq Azərbaycan və Türkiyə arasında media platforması yaradılmışdır. Bu xüsusda 2021-ci il aprelin 10-da Bakıda keçirilmiş Türk Şurasının mediadan məsul nazir və rəsmilərinin iclası xüsusi əhəmiyyət daşıyır. Həmin iclasda qəbul edilmiş qərarlara müvafiq olaraq, 22-24 oktyabr tarixlərində İstanbul şəhərində "Dərin kökə sahib keçmiş, güclü gələcək" mövzusunda Türk Şurası Media Forumu təşkil olunmuşdur. Təhsil sahəsində əməkdaşlıq da uğurla davam etdirilməkdədir. Təşkilat çərçivəsində gənclər sahəsində əməkdaşlığa xüsusi önəm verilir. Azərbaycanın sədrliyi dövründə Türk Şurasının institusional inkişafı ilə əlaqədar müzakirələr davam etdirilmişdir.

İstanbul Zirvə Görüşündə Türk Şurasının "Türk Dövlətləri Təşkilatı" adlandırılmasına dair qərar qəbul edilmişdir. Bu dəyişiklik təşkilatın beynəlxalq nüfuzunun artırılmasına və digər tanınmış təşkilatlarla əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Daha sonra Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında və s. qərarlar imzalanmışdır. Bütün bunlar təşkilatın qarşıya qoyduğu məqsədlərə çatmasına, böyük strateji hədəflərin addım-addım reallığa çevrilməsinə kömək göstərir. Aparılan təhlillər bir daha sübuta yetirir ki, türk dövlətlərinin ortaq keçmişdən ortaq gələcəyə doğru birgə irəliləməsi ideyası xəyal deyil, reallıqdır. Bu reallığın formalaşdırılmasından ötrü əməli addımlar atılır, nəticələr əldə olunur, qazanılmış hər nailiyyət növbəti uğurlarla möhkəmləndirilərək daha da inkişaf etdirilir. Burada türk dünyasının birliyi üçün bütün gücünü, imkanlarını ortaya qoyan Azərbaycanın müstəsna xidmətləri var.

## Yeni nəfəs

Azərbaycanın Türk Şurasına sədrliyi dövrünün ölkəmiz üçün ən önəmli hadisələrindən biri də 44 günlük Vətən müharibəsində qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etməyimizdir. Müharibə dövründə türkdilli dövlətlərin xalqları da Azərbaycana ardıcıl dəstək vermiş, ölkəmizin Zəfəri türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynamışdır. Ölkəmizin beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyi Türk Şurası Katibliyi tərəfindən davamlı olaraq dəstəklənmişdir. 2020-ci ilin iyul ayında Ermənistanın Azərbaycanla dövlət sərhədi boyu Tovuz rayonu istiqamətində törətdiyi təxribat barədə, 44 günlük müharibə dövründə Azərbaycanın mövqeyini müdafiə edən, Ermənistanın Gəncə və Bərdə şəhərlərini raket atəşinə tutaraq dinc əhalinin qətlə yetirməsini qınayan bəyanatlar verilmişdir.

Türk Dövlətləri Təşkilatı Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi təşəbbüsünü irəli sürmüşdür.

Bu gün regionda həyata keçirilən beynəlxalq və regional layihələr ölkələrimiz arasında əməkdaşlığa öz töhfəsini verməkdədir. Azərbaycanın tarixi zəfərindən sonra bölgədə yaranmış yeni reallıqlar, Zəngəzur dəhlizinin açılması türk dövlətləri arasındakı bağlılığı daha da artıracaq. Əməkdaşlığımıza yeni bir nəfəs qatacaq. Üzv ölkələr arasında yük və sərnişin daşımalarının həcminə müsbət məcrada təsir edəcək. Eyni zamanda inteqrasiya prosesləri insanlarımız arasında təmasların intensivləşməsinə səbəb olacaq.

Beləliklə, türk dünyası üçün möhtəşəm bir gələcək başlanır. Azərbaycan bu gələcəyin əsas müəlliflərindəndir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 20 noyabr Ağdamın azadlığa qovuşduğu gündür!

# Salam, Ağdam!

Əvvəli 1-ci səh.

**Bilirdik ki, Tanrı bu dərdi əlacsız qoymaz!**

**Bilirdik ki, torpaq əsl sahibi qayıtmadan uzun müddət boş qalmaz!**

Düşmən arxalı idi, müdafiəçiləri, köməkçiləri, sözünü deyənləri çox idi...

Acgöz və tamahkar, bayquş kimi xarabalıqlar sevirdi...

İçi mebellə, qab-qaşıqdan tutmuş yorğan-döşəyədək dolu olan bütün evləri, mənzilləri "yaxınları"na satdı, taladı...

Evlərin dəmir, taxta materiallarını, daşlarını belə pula çevirdi...

Qəbirlərin baş daşlarının üstünü silərək yenidən satdı, məzarları eşib ölənlərin qızıl dişlərinə qədər çıxardı.

Nə bacardısa, etdi!

*Amma ürəyində bir xof da vardı: bilirdi ki, torpağın əsl sahibi hökmən geri qayıdacaq, cəzasını verəcək!*

*Kimlər nə qədər qorusalar da, müdafiə etsələr də!*

Prezidentimizin kövrələrək dedikləri sözlər biz məcburi köçkünlərə verilən ən yüksək qiymətdir: *"Hər zaman mənim gözlərim önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm oldular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"*

❖ ❖ ❖

**Xalq əsl rəhbərini, ordu isə inandığı qəhrəman sərkərdəsini tapanda bütün müşküllər həll olunur!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli bir ordu yaratdı, onu ən müasir silahlarla silahlandırıb, ən yeni taktika və strategiya tətbiq etdi, nəticədə ən az itki ilə ən yüksək nəticə qazanıldı!**





*Azərbaycan Ordusu qarşısında kimsə duruş gətirə bilmədi!*

*Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyi qarşısında bütün bədniyyətlilər geri çəkildilər!*

27 ilin gözyaşı, 27 ilin həsrəti, 27 ilin möhnəti 44 gündə qurudu, işğal sona çatdı, bütün həsrət, əziyyət, möhnət möhtəşəm Zəfərlə bitdi!

Düşmən ordusu "dəmir yumruğ"un zərbələri ilə məhv edildi!

Bir qismi fərarilik edərək döyüş meydanından qaçdı, qalanları qarşımızda diz çökdü!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev hərb meydanında sübut etdi ki, əsl məğlubedilməz ordu Azərbaycan Ordusudur, əsl qalib millət Azərbaycan xalqıdır!**

❖ ❖ ❖

Son 26 il ərzində 23 iyulu "qara bayram" kimi qeyd edirdik.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə əsl bayramımızı, sənin düşmən işğalından geri qaytarılmağını şəxsi sücaət və qəhrəmanlığı ilə təmin etdi!

Azərbaycan tarixinə 20 noyabrı Ağdamın xilası günü kimi həkk etdi!

Halbuki düşmən 6 qat müdafiə xətti yaradaraq qəhrəman ordumuzun mərkəzdən hücuma keçəcəyini gözləyirdi.

**Bu, əslində, Baş Sərkərdəmizin uğurlu, aldadıcı hərbi manevri idi!**

**Ermənilərin dostlarının köməyi ilə 27 il ərzində qurduqları müdafiə səngərləri, beton bunkerlər, "Ohanyan xətti", mina sahələri və başqa maneələr Azərbaycan Ordusuna ciddi tələfat verməyə hazırlanmışdı!**

**İlham Əliyev sərkərdə qüdrəti ilə ermənilərin bu tələsini puça çıxardı!**

Beləliklə, həm də sənin qoynundan öz övladlarına doğru güllə atılması niyyəti baş tutmadı!

❖ ❖ ❖

**Salam, Ağdam!**
**Azadlığın mübarək!**
**Yeni növrağın mübarək!**

*Daha heç vaxt yadlar sənin üstündə gəzməyəcək, qulağın yad səslər eşitməyəcək!*

*Daha heç vaxt biz səni yad əllərə verməzik, səndən ayrı düşmərik!*

*Çəkdiklərimiz həm sənə, həm də bizə bəs edər!*

Keçmiş olsun, bəlalı günlərin arxada qalsın.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə şəhidlərimizi deyil, dağıdılan kənd və şəhərlərimizin də qisasını aldı, erməni Qarabağdan iti qovan kimi qovdu!**

**İndi növbə sənin yaralarını sağaltmaq, həsrətində olanları yenidən qoynuna qaytarmaqdır.**

Düşmən murdar xislətini sonadək davam etdirib.

Torpaqlarımızdan cəhənnəmə qovulsalar da, basdırdıqları ölüm toxumları - mina və mərmilər zərərsizləşdirilməsə, hər an cücərə, fəlakət törədə bilər.

Bizə verdiyi mina xəritələrinin dəqiqliyi isə vur-tut 25 faizdir.

Bu addımında da mənfurluğuna, murdar xislətinə sadiq qalıb!

❖ ❖ ❖

Vüsalına qovuşmaq üçün hələ çox iş görməliyik, lap çox!

**Dövlət başçısı İlham Əliyev ilk olaraq Ağdam şəhərinin baş planını təsdiq etdi!**

**Həmin baş plana görə dünya şəhərsalma tarixində yaxşı və nadir nə varsa, hamısı yeni Ağdamda olacaq!**

**Bir-birindən gözəl layihələrin baş müəllifi, əslində, Prezident İlham Əliyevdir.**

*Yeni salınacaq Ağdam şəhərində çoxmərtəbəli binalar, park və xiyabanlar, yaşıl zonalarla yanaşı, süni göllər, şəlalələr, su kanalları, tramvay və velosiped yolları, uşaq əyləncə meydançaları, daha nələr, nələr olacaqdır!*

*Yüz min insanın yaşaması üçün planlaşdırılan şəhər gözəlliyi, rahatlığı ilə fərqlənəcək, Qarabağın baş şəhərinə çevriləcəkdir.*

*Bir sözlə, köhnə Ağdam unudulmayacaq, təzəsi isə düşmən gözü çıxaracaqdır!*

Tələsirik, çox tələsirik!

Yenidən sənə qovuşmağa, yaralarını sağaltmağa, doğma yurda qayıtmağa, şən-firavan yaşamağa can atırıq!

Prezidentimiz bizi bu istəyimizə də daha tez qovuşdurmaq üçün nə mümkünsə edir!

İnanırıq ki, vüsal günümüz uzaqda deyil!

Tezliklə, lap tezliklə əbədi görüşəcəyimiz, əbədi birgə olacağımız günün həsrəti ilə!

**Ağdam bizimdir!**
**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

---

**◆ Zəfərin izi ilə**

## Bir il öncə azad olunan rayon indi genişmiqyaslı quruculuq dövrünü yaşayır

# Ağdam Qarabağın iqtisadi-sənaye mərkəzi olacaq



Əvvəli 1-ci səh.

Ağdam rayonunun bir güllə atılmadan işğaldan azad olunması tarixi hadisədir. İşğal edilmiş ərazilər arasında əhalisinin sayına görə ən böyük rayon olan Ağdamın döyüşlə işğaldan azad edilməsi müharibənin müddətini uzatmaqla yanaşı, Azərbaycanın hərbi, iqtisadi sahələrdə bir çox itkilərə məruz qalmasına, daha çox şəhid verməsinə səbəb ola bilərdi. Düşməni qarşısında diz çökdürən Azərbaycan isə Ağdamı bir şəhid vermədən belə azad edə bildi.

### "Biz düşməni Ağdam istiqamətində aldada bildik"

Hərbi ekspert Şair Ramaldanov deyir ki, üçtərəfli Bəyanat əsasında Ağdamın döyüşsüz işğaldan azad edilməsinin əhəmiyyəti həddindən artıq böyükdür. Ağdamın böyük yaşayış məntəqəsi olması, ermənilərin orada müdafiələrini güclü qurması bu rayonun döyüşlə alınması zamanı itkilərimizin də çox olacağına gətirib çıxaracaqdı: "Ali Baş Komandan düşmənin Ağdamın müdafiəsini daha yaxşı təşkil etdiyini və orada güclü mühəndis-istehkam sistemi qurduğunu bilirdi. Məhz buna görə də ordumuz o istiqamətdən hücum etmədi və Ali Baş Komandan orada düşmənin qüvvəsinin uzun müddət gərgin vəziyyətdə saxlanılmasına nail oldu. Düşmən Ağdamdan qüvvələrini çıxarıb başqa istiqamətə göndərmirdi, daim o istiqamətdən bizim hücumumuzu gözləyirdi. Azərbaycan Ağdam istiqaməti üzrə qüvvə saxlamışdı və orada da aktiv döyüşlər gedirdi. Sadəcə olaraq, Ordumuz orada irəliləmirdi. Ali Baş Komandanın qərarları ilə biz düşməni o istiqamətdə aldada bildik. Cənub, yəni düşmənin hücumun olmasını ən az ehtimal etdiyi istiqamətdə biz uğurlarımıza davam etdik. Ali Baş Komandanın cənub istiqamətdən hücumları davam etdirməsi düşmən üçün gözlənilməz olub".

Ş.Ramaldanov bu fikirdədir ki, Azərbaycan düşmənin mövqeyini düzgün qiymətləndirdi və bundan çox düzgün, məharətlə istifadə etdi. Planın məharətlə icra edilməsində sərkərdənin xüsusi bacarığı mühüm rol oynayıb: "Bu müharibənin ümumi planına baxılarsa, Ağdam istiqaməti Şuşa, Xankəndiyə gedən yol baxımından daha əlverişli sayılırdı, çünki oradakı məsafə daha qısa idi. Düşmən də belə düşünürdü və əsas gücünü məhz Ağdam istiqaməti üzrə toplamışdı. Ancaq Azərbaycan düşmənin məhz belə düşündüyünü nəzərə alaraq, bütün vəziyyəti düzgün qiymətləndirdi və onları şahmat oyunundakı kimi mat vəziyyətinə gətirib çıxardı".

### Müharibədəki itkilərimiz ən azı 10 dəfə çox ola bilərdi

Ş.Ramaldanov hesab edir ki, Azərbaycan müharibədən heç bir hesablamaya sığmayan minimum itkilərlə çıxdı. Ağdam, Kəlbəcər və Laçının hərbi əməliyyatlar yolu ilə azad edilməsinə nail olsaydıq, Vətən müharibəsindəki itkilərimizin ən azı 10 dəfə çox olacağı gözlənilirdi. Ağdamın hərbi cəhətdən çox güclü müdafiə edilməsi səbəbindən itkilərin çoxu bu istiqamətdə olacaqdı. Ağdam istiqamətində düşmənin daim "narahat edilməsi" və Azərbaycanın düşməndə bu istiqamət üzrə hücum əməliyyatının ola bilməsi fikrini yaratması onlara qüvvələrinin buradan ayrılıb başqa mövqeyə göndərilməsinə imkan vermədi. Bu isə taktiki cəhətdən çox düşünülmüş addım idi: "Ona görə də bizim döyüşlər zamanı aparılan taktiki gedişlər böyük dövlətlərin ali hərbi məktəblərində və akademiyalarında bir nümunə kimi öyrədilir. Müharibənin bitməsindən bir il keçməsinə baxmayaraq, hələ də bu taktikanın öyrənilməsi üçün müraciətlər davam edir. Zabitlərimiz xarici ölkələrə dəvət edilir və onlardan bu təcrübəni bölüşmək xahiş edilir. Bu taktika gələcəkdə dünyanın hərb tarixində də özünəməxsus yer tutacaq".

Prezident İlham Əliyevin müharibədəki itkilərə çox həssaslıqla yanaşdığını nəzərə çatdıran Ş.Ramaldanov qeyd edir ki, Ali Baş Komandan həm müharibədən əvvəl erməni təxribatlarının qarşısının alınmasına, həm də Vətən müharibəsi zamanı hər bir insan itkisinə çox ciddi yanaşıb: "İtkilərin minimum olması üçün döyüş istiqamətlərinin müəyyən edilməsi, hücum planlarının hazırlanması zamanı düzgün qərarların verilməsi olduqca prioritet məsələ idi. İnsan itkisinin minimum olması üçün tapşırığın aliliyi saxlanılmaqla, əlavə tədbirlər də görülürdü. Digər tərəfdən, minimum itkilər Azərbaycan hərbçilərinin professionallığı, müasir döyüş texnikası ilə təchizat, hərtərəfli təminat nəticəsində mümkün oldu".

### Elə bir Ağdam quracağıq ki, dünya üçün örnək olacaq

Azərbaycanın ən böyük yaşayış məntəqələrindən olan Ağdam uzunsürən döyüşlərdən sonra - 1993-cü il iyulun 23-də Ermənistan ordusu tərəfindən işğal edilib. Ən böyük yaşayış məntəqələrindən olan Ağdamın 73 faizi 27 il düşmənin nəzarəti altında olub. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam sakinlərinin sayı 204 min nəfərdir.

Azərbaycan hələ işğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atıb. Vətən müharibəsindən əvvəl Azərbaycan nəzarəti altında olan ərazilərdə böyük quruculuq, abadlıq işləri aparıb. Ötən müddətdə Quzanlı faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevrilib. Rayonda 18 məcburi köçkün şəhərciyi salınıb və buraya 93 min insan yerləşdirilib. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam əhalisinin 45 faizi rayonun ərazisində yaşayır. Lakin çox tezliklə rayonun bütün sakinləri öz doğma-yurd yuvalarına qayıdacaqlar.

"Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaq", - deyən Prezident İlham Əliyev ağdamlıların bundan sonra bu ərazidə əbədi yaşayacağını da bəyan edib.

Ermənilərin tamamilə viran qoyduqları, bir salamat bina belə saxlamadıqları Ağdamın yenidən qurulması üçün artıq işlərə başlanılıb. Azad edilmiş ərazilər üzrə ilk baş plan Ağdam rayonuna aid olub.

Ağdamın gələcək ərazisi indikindən iki dəfə böyük olacaq. Yeni Ağdam 100 min nəfər sakin üçün planlaşdırılır.

### Ağdamın şöhrəti özünə qayıdacaq

Xalq artisti Mənsum İbrahimov 19 yaşınadək yaşadığı Ağdamın işğaldan əvvəlki şöhrətinin özünə qaytarılacağına, yenidən mədəniyyət mərkəzinə çevriləcəyinə inanır.

Ağdamın işğalının onun sənətinə də təsirsiz ötüşmədiyini deyən M.İbrahimov hesab edir ki, rayonun işğalı gənc muğam ifaçılarının sayının azalmasına səbəb oldu: "Vaxtilə bizim muğamımıza gələn "səs"lərin çoxu Ağdamdan idi. Ancaq son illərdə bu "səs"lərin sayı azalmışdı. Muğam müsabiqələrində bizə demək olar ki, "səs" gəlmirdi. Buna görə də biz çox əziyyət çəkirdik. Şükür ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə o torpaqları azad etdik. Cənab Prezidentin apardığı siyasət nəticəsində bir şəhid belə vermədən Ağdam torpağı işğaldan azad edildi. Mayın 28-də Qarabağımızın döyünən ürəyi olan Ağdamın tarixi təməlqoyma mərasiminə şahidlik etmək mənim üçün böyük bir qürurdur".

Ağdamın çox möhtəşəm layihəsinin olduğunu deyən M.İbrahimovun fikrincə, doğma şəhəri dünyada analoqu olmayan şəhər kimi qurulacaq. Bu şəhər həm qədimliyi, həm də müasirliyi özündə saxlayacaq: "Eyni zamanda orada Qarabağ Universiteti yaradılacaq. Bura həm də mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcək. Ağdam hər zaman sənət, mədəniyyət baxımından bir mərkəz olub. Ağdamın yuxarı hissəsi həmişə turizm bölgəsi olub. Hesab edirəm ki, Ağdam dünyanın hər yanından ziyarət olunacaq gözəl bir yer olacaq. Prezident İlham Əliyevin sayəsində burada yenidən böyük muğam festivalları, beynəlxalq tədbirlər keçirəcəyik".

Ağdamda Milli Konservatoriyanın filialının açılmasını arzulayan xalq artisti orada musiqi, xüsusilə muğamla bağlı bir çox layihələrin həyata keçirilməsinin vacibliyini və bu layihələrdə iştirak etməyə hazır olduğunu deyir.

### İlham Əliyev Ağdamı inkişaf və quruculuğun yeni rəmzinə çevirib

Ağdam ziyalısı, rayonun 38 saylı orta məktəbinin direktoru Məsud Həmzəyev isə deyir ki, şanlı Zəfərin, o cümlədən Qarabağın giriş qapısı adlandırılan Ağdamın işğaldan azad olunmasının bir ilinin tamamı böyük fəxarət, qürur hissi ilə qeyd edilir. Çünki bir il öncə 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdə qətiyyəti, liderlik qabiliyyəti, xalqın mütəşəkkilliyi və insanların dövlət başçısına olan inamı, sevgisi nəticəsində 30 illik yurd həsrətimizə son qoyuldu.

Məsud Həmzəyev qeyd edir ki, Müzəffər Sərkərdəmiz və onun qüdrətli ordusu düşmən tapdağında olan torpaqlarımızı azad edərək Azərbaycan xalqının arzusunu, xəyalını gerçəkləşdirdi: "İndi doğma ocaqlarımıza gedən yollarımız bütün genişliyi ilə üzümüzə açılıb. Artıq yavaş-yavaş hazırlaşıb doğma torpaqlarımıza dönmək ovqatındayıq. Həsrətə, intizara son qoyulur, ata-baba yurdumuzun isti qoynuna qayıdırıq. Şükürlər olsun ki, bu günü görmək, bu anın sevincini yaşamaq bizə nəsib oldu. Yurd yerlərimizin nisgilini çəkə-çəkə, qürbətindən yanıb qovrula-qovrula gəlib bu xoş günə çatdıq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli Ordusu sürətli əks-həmlələri ilə qısa müddət ərzində qaçqınların torpaq nisgilinə son qoydu. Üzlərə, gözlərə qucaq-qucaq sevinc ələdi, könüllərdəki sıxıntını, qubarı şanlı Zəfərləri ilə təmizlədi. Ağdamın işğal altında olan bütün əraziləri isə bir güllə atılmadan azad edildi. Vətən müharibəsindəki Zəfərimiz Ali Baş Komandanımızın əsl Sərkərdə qətiyyətinin, Ağdamın azad olunması isə Prezidentimizin diplomatik məharətinin təntənəsi oldu".

M.Həmzəyev işğaldan azad edildikdən sonra Ağdama səfər edən ziyalılardan biridir. Amma uzun illərdir xəyalında yaşatdığı əzəmətli Ağdamın əvəzinə yerləyeksan edilmiş, viran qalmış bir şəhəri görmək ona çox ağır təsir bağışlayıb: "Dəhşətli mənzərə ilə qarşılaşdım. O gözəllikdə şəhərdən əsər-əlamət qalmamışdı. Ağdamın görüntülərini televiziyadan, internetdən çox seyr etmişdim. Ancaq uşaqlığımın keçdiyi bir şəhəri viran vəziyyətdə görmək mənə çox ağır təsir etdi. İbrahimxəlil xanın türbəsi, Xurşidbanu Natəvanın qəbirüstü abidəsi dağıdılıb, Pənahəli xanın imarəti təhqir edilib. Bütün bunlar ermənilər tərəfindən törədilmiş vandalizmin göstəricisidir. Bununla belə, içimdə qürur hissi də var. Axı bütün hallarda Ağdam artıq bizdədir və bu, yuxu deyil, reallıqdır. Bizə bu sevinci, qüruru yaşadan, Ağdamı bizə qaytaran Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. Məhz cənab İlham Əliyevin xilaskarlıq missiyası ağdamlılarda əbədi ehtiram və sədaqəti daha da gücləndirib".

M.Həmzəyev bir Ağdam ziyalısı olaraq, hesab edir ki, tezliklə bütün Qarabağda erməni rəzilliyindən, barbarlığından əsər-əlamət qalmayacaq. Çünki cənab İlham Əliyev Müzəffər Sərkərdə kimi 44 günə düşməni ildırım sürəti ilə necə məğlub edibsə, o cür yenilməz ruhla da işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinə başlayıb. İndi az qala bütün dünya Qarabağda bərpa-quruculuq işlərinin birinci mərhələsinin necə geniş vüsət almasına şahidlik edir: "Prezident İlham Əliyev ilk olaraq Ağdam şəhərinin baş planını təsdiq etdi və yeni qurulacaq müasir şəhərin təməl daşını qoyaraq Ağdamı inkişaf və quruculuğun yeni rəmzinə çevirdi. Yeni qurulan Ağdamda müasirliklə tarixiliyin vəhdəti öz əksini tapacaq. Özü də daha möhtəşəm, daha əzəmətli".

Onun sözlərinə görə, Prezidentin verdiyi tapşırıqlar elə icra edilməlidir ki, bütün proseslər vaxtında və uğurla reallığa çevrilsin. Vətən müharibəsində "dəmir yumruq" ətrafında birləşib qələbə qazandığımız kimi, bundan sonra da bir olub, azad edilmiş ərazilərimizin yenidən qurulması, çiçəklənməsi üçün dövlətə, Prezidentə dəstək olmalıyıq.

M.Həmzəyevin fikrincə, bu prosesdə Ağdam ziyalılarının üzərinə böyük məsuliyyət düşür. Ziyalılarımız, xüsusən müəllimlər Ağdamın təhsilini, mədəniyyətini, tarixini, adət-ənənəsini, iqtisadiyyatını, kənd təsərrüfatını, bir sözlə, əvvəlki şöhrətini özünə qaytaracaq gənc nəsil yetişdirmək üçün çalışmalıdırlar: "Bu gün məcburi köçkün sayılmayan, torpağı azad olan ağdamlıların yeni nəsil gəncliyi vətənpərvər ruhda formalaşaraq yenilikçi ideyaları ilə həm də rayonun təhsil ənənələrinin əvvəlki şöhrətini qaytarmaq üçün əllərindən gələni əsirgəməməlidirlər. Bugünkü şagirdlər artıq keçmiş məcburi köçkünlərin övladları, Vətən müharibəsindəki şanlı Zəfər dövrünün uşaqlarıdırlar. Biz ziyalılar da çalışmalıyıq ki, keçmişi unutmadan tariximizi olduğu kimi onlara aşılayaq və gələcək nəsillər bizim yaşadıqlarımızı bir daha yaşamasınlar".

Ağdam ziyalısı əmindir ki, Ermənistanın 30 ildə məhv etdiyi Qarabağı əsl sahibləri qısa müddətdə yenidən dirçəldəcəklər. Şəhərlərimiz, kəndlərimiz bərpa ediləcək və Qarabağa yenidən işgüzar həyat qayıdacaq. 2-3 il müddətində yeni, müasir Ağdam şəhəri qurulub doğma sakinlərinə təhvil veriləcək.

### Ağdam yenidən xoşbəxt şəhər olacaq

Hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri Habil Qurbanov uzun illər bir ovuc torpağına həsrət qalan ağdamlıların indi bütün Ağdama sahib olduğunu söyləyir: "Çox yaşlı adamlardan eşitdiyim "Şükür, daha arxayınam ki, mən öləndə öz kəndimizdə, ata-babamın yanında dəfn olunacağam" sözləri məni çox kövrəldir. İnanıram ki, bu torpaqda əbədiyyətə qovuşub uyuyanların ruhuna bir rahatlıq gəlib. Artıq onların vandallar qarşısında müdafiəsiz qalan, dağıdılan məzarları öz doğmaları tərəfindən gül-çiçəyə qərq olacaq. Ağdamın yolunda canını fəda edən qəhrəman igidlərin də ruhu rahatlıq tapıb. Onların uğrunda şəhid olduqları bu torpaq artıq vandallardan xilas olub. Mən ağdamlıların adından bizə bu böyük sevinci bəxş edən, yaşadığımız ağrı-acını, əzabları unutduran Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. O, bütün dünyanın tanıdığı, dəyər verdiyi böyük tarixi şəxsiyyət, Azərbaycanın böyük xilaskar sərkərdələrindən biridir".

H.Qurbanov bunu da əminliklə deyir ki, ağdamlıların hazırda yaşadığı fərəh ölkəmizdəki böyük bir intibah dövrünün hələ başlanğıcıdır.

Yeni Ağdamın təməlqoyma mərasimində iştirak edən alimin sözlərinə görə, onun doğma rayonunun adı yenidən bütün dünyaya xoşbəxt şəhər kimi yayılacaq. Bütün ağdamlılar Ağdam şəhərinin, kəndlərinin quruculuğu yolunda əllərindən gələni edəcəklər: "Artıq gənclər Ağdam şəhərini, kəndlərimizi tezliklə tilsimdən çıxarmağa, onları yenidən canlandırmağa, dünyanın ən gözəl məkanına çevirməyə tələsirlər. Yaşlılar onlara hər cür dəstək olmağa çalışırlar. Ağdamın yüksəlməsinə həm də muğamın ruhu kömək edəcək".

Prezident İlham Əliyevi Qarabağdakı quruculuq işlərinin baş memarı sayan H.Qurbanov bildirir ki, möhtəşəm şəhər olacaq Ağdamda yeni parklar, meşələr salınacaq, kanal çəkiləcək, gözəl layihələr əsasında yeni evlər tikiləcək, köhnə abidələrin hamısı bərpa olunacaq, Ağdamın təcavüz və qələbə tarixini özündə yaşadacaq "İşğal" və "Zəfər" muzeyləri yaradılacaq.

Yenidənqurma işlərindən sonra Ağdam Qarabağın ən böyük şəhəri olacaq. Keçmişlə gələcəyin, qədimliklə müasirliyin birləşəcəyi Ağdam həm də Azərbaycanın 6-cı ən böyük yaşayış məskəninə çevriləcək.

Çox tezliklə təkcə Ağdam deyil, işğaldan azad edilmiş Qarabağın digər əraziləri də həyatın qaynar axınına düşəcək, canlı yaşayış məskənləri olacaq.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***

*Əvvəli 1-ci səh.*

## Bütün dövlətlər əməkdaşlığa dəvət olunur

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin bununla bağlı məlumatında bildirilir ki, qətnaməyə BMT-nin 126 üzv dövləti həmmüəllif qismində qoşulub. Kifayət qədər müfəssəl məzmunda olan qətnamədə digər məsələlərlə yanaşı, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2020-ci il dekabrın 3-4-də keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası alqışlanır.

Sənəddə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca amillərdən olduğu vurğulanır. O cümlədən COVID-19-a qarşı mübarizədə çoxtərəfliliyin, eləcə də beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyətinə xüsusi vurğu edilir. Bu xüsusda bütün dövlətlər, özəl şirkətlər və digər aktorlar COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret tədbirlər görməyə çağırılır.

Bütün dövlətlər COVID-19 əleyhinə peyvəndlərin ixracı ilə bağlı mövcud olan əsassız maneələri aradan qaldırmağa və peyvəndlərin hazırlanması və səmərəli paylanması sahəsində əməkdaşlığa dəvət olunur. Həmçinin BMT Baş katibinə Baş Assambleyanın növbəti sessiyasına hazırkı qətnamənin icrası ilə bağlı hesabat təqdim etməsi tapşırılır.

# İlham Əliyevin növbəti qlobal uğuru

## Beynəlxalq həmrəyliyə verilən töhfə




### Azərbaycan Prezidentinin təşəbbüsü ilə COVID-19 peyvəndləri ilə bağlı irəli sürülmüş qətnamə BMT-yə üzv dövlətlər tərəfindən qəbul edilib

Pandemiya dövründə Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər virusla mübarizədə beynəlxalq həmrəyliyin təmin olunmasına böyük töhfələr verib. Ötən ilin aprel ayında Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü keçirildi. İlham Əliyevin pandemiyaya qarşı mübarizənin ilk günlərindən irəli sürdüyü "Biz birlikdə güclüyük!" çağırışı birinci dəfə bu Zirvə görüşü zamanı qlobal çevrədə öz real ifadəsini tapdı.

Azərbaycan Prezidenti ortaya qoyduğu məqsədyönlü mövqeyi, prinsipial yanaşmanı daha bir qlobal təşəbbüslə davam etdirdi. Türk Şurasının Zirvə Görüşündən sonra Azərbaycanın təşkilatçılığı ilə koronavirusla mübarizə üzrə beynəlxalq həmrəylik niyyətli növbəti beynəlxalq tədbir baş tutdu. 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi.

BMT-nin Baş Assambleyasından sonra dünyada ikinci ən böyük beynəlxalq təsisat olan, 120 dövlətin bir araya gəldiyi Qoşulmama Hərəkatının tarixində ilk dəfə idi ki, belə bir Zirvə görüşündə Avropa İttifaqının rəsmisi də iştirak etdi. Bu, bir tərəfdən Azərbaycan Prezidentinin dünya miqyaslı lider kimi beynəlxalq nüfuzunun göstəricisi, digər tərəfdən də Qoşulmama Hərəkatı ölkələri ilə Avropa İttifaqı dövlətlərini qlobal təhdidə qarşı əməkdaşlıq mövzusunda bir araya gətirməyi bacarması reallığının təcəssümü oldu.

Bu tədbir Prezident İlham Əliyevin daha bir qlobal təşəbbüsünün beynəlxalq səviyyədə böyük dəstək qazanmasına vəsilə oldu. Zirvə görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürdü. Bu təklif Qoşulmama Hərəkatına üzv 120 ölkə arasında yekdilliklə razılaşdırıldı. Bunun ardınca Hərəkatın sədri kimi Prezident İlham Əliyev üzv ölkələr adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT baş katibi Antoniu Quterreşə müraciət ünvanladı və ötən ilin iyul ayında Prezident İlham Əliyevin təşəbbüsü əsasında BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası çağırıldı.

Ötən il noyabrın 5-də isə BMT Baş Assambleyası öz plenar iclasında "Koronavirus xəstəliyi (COVID-19) pandemiyasına cavab olaraq Baş Assambleyanın xüsusi sessiyası" ilə bağlı qətnaməni qəbul etdi. Qətnaməyə əsasən, Azərbaycan Prezidenti tərəfindən Qoşulmama Hərəkatına üzv ölkələr adından irəli sürülən təşəbbüs əsasında 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunan dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirildi.

Daha sonra Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə bu ilin mart ayında yekdilliklə qəbul olundu.

### 10 milyon dollar yardım, 30-dan artıq ölkəyə dəstək, təmənnasız 150 min doza vaksin...

Pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasda olub. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırıb. Respublikamız Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi edib. Bununla yanaşı, Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərib, dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin verib.

Göründüyü kimi, COVID-19-la mübarizədə beynəlxalq həmrəyliyi təmin edən Azərbaycan həm də öz yardımları ilə bu həmrəyliyin daha da möhkəmlənməsi istiqamətində nümunələr ortaya qoyur.

Onu da qeyd edək ki, varlı və kasıb ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə davamlı olaraq Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin gündəliyindədir. Bu ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Prezident İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınamış və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi.

Noyabrın 18-də BMT Baş Assambleyasının üçüncü komitəsində sözügedən qətnamənin layihəsi müzakirə olunub və səsvermə ilə qəbul edilib. Heç bir ölkə qətnamənin əleyhinə səs verməyib. Qətnaməyə münasibətdə bitərəf qalmış 7 ölkədən biri isə regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistandır. Bu, Ermənistanın bütün məsələlərə, hətta humanitar məsələlərdə də Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının nümunəsidir.

Bütövlükdə, bu qətnamənin qəbulu Prezident İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səylərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Əlilliyi olanın əlindən tutmaq sosial siyasətin əsas istiqamətlərindəndir





*Əvvəli 1-ci səh.*

Bir sözlə, cəmiyyətin ehtiyacı olan hər bir üzvü dövlətin yaratdığı bu imkandan istifadə edə bilir.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, son illər ölkədə aparılan genişmiqyaslı sosial islahatlar əlilliyin qiymətləndirilməsini də əhatə edərək əlillik təyinatlarının şəffaflaşdırılması, əlillik dərəcələrinin yalnız əlillik statusuna haqqı çatan şəxslərə təyin edilməsinə xidmət edir. Görülən tədbirlər əlilliyi olan şəxslərin hüquqlarının daha etibarlı şəkildə qorunmasına imkan yaradır.

Bəzi KİV və sosial mediada "200 min şəxsin əlilliyinin ləğv edildiyi, pensiyalarının kəsildiyi kimi iddialar doğru deyil, bunların heç bir əsası yoxdur. Məqsəd dövlətin bu istiqamətdə apardığı məqsədyönlü islahatları qaralamaq, sosial ədalətin bərpasına kölgə salmaqdır. İstəkləri cəmiyyətdə süni ajiotajla aparılan islahatlara qarşı mənfi rəy yaratmaqdır. Sosial ədalətin bərpasında, saxtakarlığın qarşısının alınmasında pis nə ola bilər ki? Deməli, bu tip informasiya yayanların məqsədi əlillərin qayğısına qalmaq deyil, görülən işlərə kölgə salmaqdır.

Əlilliyi müəyyən edən qanunda olunan dəyişiklik də sosial ədalətin təmin edilməsinə xidmət edir. Məsələn, bəzən vətəndaşlar əlilliyin təkrar qiymətləndirilməsi, yəni əlillik müddətinin uzadılması üçün müraciətin edilməsində, sənədlərin toplanmasında müəyyən gecikmələrə yol verir, göndəriş də əlilliyin bitdiyi tarixdən sonra daxil olur. Belə hallarda da dövlət vətəndaşın mənafeyini qoruyur. Cari ilin iyul ayında qanunda edilən dəyişikliyə görə, əlillik müddəti bitdikdən sonra 6 ay ərzində təkrar təyin olunan əlillik məhz əvvəlki əlillik təyinatı müddəti bitdiyi tarixdən hesablanır. Yəni ortada ötürülmüş müddət üçün də hər bir şəxs əlilliyə görə sosial ödənişlərini ala bilir. Beləliklə, aydın görünür ki, qanunda edilən dəyişiklik vətəndaşların sosial hüquqlarının daha etibarlı şəkildə qorunmasını təmin edir.

Əlilliklə bağlı mövcud qanunvericilik bazası hər bir Azərbaycan vətəndaşına dövlətin yaratdığı bu imkandan yararlanmağa şərait yaradır. Qanunla haqqı çatan hər bir şəxsin əlillik dərəcəsi almaq imkanı var. Lakin dövlət bəzi şəxslərin müxtəlif yollarla sağlam olduqları halda əlilliyə görə pensiya almasına imkan verə bilməz. Bu sahədə sosial ədalətin bərpası cəmiyyət tərəfindən müsbət qarşılanır. Çünki saxta yollarla əlillik dərəcəsi əldə edənlər buna hüququ çatanın haqqını mənimsəmiş olur. Dövlətin və vətəndaşın istəyi bu işdə üst-üstə düşür. Elə buna görədir ki, bəzi avantürist qüvvələrin bu barədə yaydıqları dezinformasiya cəmiyyətdə dəstək tapmadı. Əksinə, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən buna qarşı təpki göstərildi.

Bəzi KİV və sosial medialarda aparılan yanlış təbliğat ikrah doğurur. Onlar iddia edirlər ki, amputasiya olunmuş şəxslər, guya, təkrar müayinəyə cəlb olunurlar. Qanuna görə, amputasiya olunan, yəni əli, ayağı və ya hər hansı bir bədən əzası olmayan şəxslərə əlillik müddətsiz (ömürlük) təyin olunur və onlar heç vaxt təkrar müayinəyə çağırılmırlar.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının sosial mənafeyi dayanır. Vətəndaşların sosial rifahının yaxşılaşması barədə mütəmadi görülən işlər də bunu təsdiq edir. Hər il dövlət büdcəsi təsdiq edilərkən biz sosial sahəyə daha çox vəsait ayrıldığının şahidi oluruq. Bunun nəticəsidir ki, hər il pensiya və təqaüdlər artırılır, həssas kateqoriyadan olan insanlara əlavə olaraq müəyyən sosial güzəştlər edilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***







# Əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahəsində görülmüş işlərə dair mətbuat konfransı keçirilib

## 2021-ci ilin ötən dövründə artıq 50 minə yaxın şəxsə əlillik təyin edilib





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov əlilliyin qiymətləndirilməsi və əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri ilə təminatı sahəsində aparılan işlərə dair mətbuat konfransı keçirib.

Prezident İlham Əliyevin tapşırığı əsasında sosial sahədə genişmiqyaslı islahatların həyata keçirildiyini vurğulayan A.Bayramov bu islahatların əlilliyin qiymətləndirilməsi sahəsini də əhatə etdiyini deyib. O bildirib ki, əlilliyin qiymətləndirilməsi elektron infrastruktur ("Əlillik" altsistemi) üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında, vətəndaş-məmur (ekspert) təması olmadan həyata keçirilir. Göndərişin kimə aid olduğu və hansı tibb müəssisəsindən göndərildiyi bilinmədən, həkim-ekspertlər tərəfindən tam obyektiv və şəffaf şəkildə qərarlar qəbul edilir.

Agentliyin sədri 2021-ci ilin ötən dövründə artıq 50 minə yaxın şəxsə əlillik təyinatı həyata keçirildiyini, bunun ötən ilin müvafiq dövrünə nisbətən təqribən iki dəfə çox olduğunu diqqətə çatdırıb. A.Bayramov tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə də xüsusi qayğı və həssaslıqla yanaşıldığını deyib. Bildirib ki, Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə qazilərin əlilliyinin qiymətləndirilməsi işləri operativ şəkildə yerinə yetirilir. İlk növbədə, komissiya üzvləri tərəfindən hərbi qulluqçuların əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) təqdim olunur və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir. Yekun mərhələ kimi əlilliyin qiymətləndirilməsi aparılır. Ötən dövrdə Vətən müharibəsinin artıq 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb və hazırda da bu işlər davam etdirilir.

Əlillik təyin olunan şəxslərə bundan sonra proaktiv qaydada olmaqla e-sistem üzərindən müvafiq sosial ödənişlərin də təyin edildiyini vurğulayan agentliyin sədri bu sosial ödənişlərin mütəmadi artırıldığını, xüsusilə son üç ildə həmin ödənişlərdə orta hesabla 2 dəfə artım baş verdiyini qeyd edib.

Bildirib ki, şəhid ailələri ilə bərabər, müharibə əlillərinin də mənzil və fərdi evlə təminatı həyata keçirilir. İndiyədək bu kateqoriyadan olanlara 11 mindən çox mənzil/fərdi ev verilib. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Onlardan 3 min mənzil və fərdi evin (2018-ci ilə nisbətən 5 dəfə çox) 2021-ci ildə verilməsi işləri aparılır ki, artıq 1850-si verilib. Şəhid ailələri və müharibə əlilləri ilə yanaşı, Vətən Müharibəsi qəhrəmanlarına, gözdən əlilliyi olan şəxslərə, dövlət uşaq müəssisələri məzunlarına da mənzillər təqdim edilir. Həmin kateqoriyalara verilən mənzilləri də nəzərə alsaq, bu il nazirlik tərəfindən verilən mənzillərin sayı 2200-ə çatır.

Həmçinin 2021-ci ilin 10 ayı ərzində agentlik tərəfindən 7615 nəfər əlilliyi olan şəxsə 38670 protez-ortopedik və digər reabilitasiya vasitələri, o cümlədən 908 mühərrikli təkərli oturacaq verilib. Son iki ildə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib. Həmin reabilitasiya müəssisələrində bu ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial-psixoloji dəstək xidmətləri göstərilib. Müharibə əlillərinin yüksək texnologiyalı elektron protezlərlə təminatı işləri aparılır və Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 ədəd son nəsil protezlə təmin edilib.

Qeyd edilib ki, bəzi KİV və sosial şəbəkə səhifələrində heç bir rəsmi məlumata istinad edilmədən, guya, "200 min şəxsin əlilliyinin ləğv edildiyi, pensiyasının kəsildiyi" kimi tamamilə əsassız olan, yanlış ictimai rəy yaratmağa yönələn fikirlər yer alır. Əlillik təyinatlarının şəffaflaşdırılması tədbirlərini gözdən salmağa, həssas qrupların adından manipulyasiya edərək onlarda aidiyyəti quruma qarşı inamsızlıq yaratmağa xidmət edən bu fikirlər tamamilə əsassızdır.

Əlilliyə görə sosial ödənişin kəsilməsi halı heç bir halda baş verməyib və hazırda da belə hal mövcud deyil. Həmin sosial ödənişlər əlillik müddəti ərzində verilir və əlillik müddəti bitdikdə həmin sosial ödənişin təyinat müddəti də bitmiş olur. Ona görə də əlilliyi olan şəxs əgər onun əlilliyi müddətlidirsə, əlillik müddətinin nə zaman bitdiyini bilməli və göndərişin həmin vaxtdan e-sistemə daxil edilməsi üçün lazımi tbbi sənədlərini vaxtında toplamalıdır.

Bəzən şəxs əlilliyinin təkrar qiymətləndirilməsi, yəni əlillik müddətinin uzadılması üçün müraciətin edilməsində, sənədlərin toplanmasında müəyyən gecikmələrə yol verir, göndəriş də əlilliyin bitdiyi vaxtdan sonra gec daxil olur. Belə hallar nəzərə alınaraq humanist yanaşma məqsədilə bu ilin iyul ayında əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericilikdə dəyişiklik edilib və beləliklə, əlillik müddəti bitdikdən sonra 6 ay ərzində təkrar təyin olunan əlillik məhz əvvəlki əlillik təyinatı müddəti bitdiyi tarixdən rəsmiləşir. Yəni ortada ötürülmüş müddət üçün də şəxs əlilliyə görə sosial ödənişlərini ala bilir.

Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli qərarı ilə təsdiq edilmiş "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"də əlilliyin hansı xəstəlik və xəsarət hallarında təyin edildiyi aydın şəkildə göstərilib. Əliliyin qiymətləndirilməsi bu əsasnamənin tələbləri əsasında aparılır. Anadangəlmə, xəstəlikdən, yaxud xəsarətdən yaranan əqli, fiziki qüsurlar nəticəsində həyat fəaliyyətinin məhdudlaşması müşahidə olunduqda əlillik təyinatına dair qərar çıxarılır.

Amputasiya olunmuş şəxslərin, guya, təkrar müayinə edildiyi barədə bəzən əsassız fikirlər səslənir. Amputasiya olunan, məsələn, əli, ayağı və ya hər hansı bədən əzası olmayan şəxslərə əlillik müddətsiz (ömürlük) təyin olunur və heç zaman da müayinəyə çağırılmırlar.

Əlilliyin qiymətləndirilməsinin rəqəmsal infrastrukturunun funksional imkanları, inteqrasiya dairəsi xeyli genişləndirilib. "Əlillik" altsistemində son aylarda 20-dən çox təkmilləşdirmə işi aparılıb, "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" adlı yeni altsistem də tətbiq edilib. Bu yeniliklər də tibbi-sosial ekspertizanın operativliyi və daha şəffaf həyata keçirilməsi, müraciətlərə obyektiv, çevik baxılması imkanlarını artırıb.

Mətbuat konfransında əlilliyin qiymətləndirilməsi ilə bağlı media nümayəndələrinin sualları cavablandırılıb.

***"Azərbaycan"***




# İlk ali təhsil müəssisələri

## *Əl-Qaraviyyin Universiteti*





Həyat xəzinəsi və bütün elmlərin bünövrəsi sayılan təhsil ilk ayaqlarını məktəblə açırsa, fərdin özünü dərk edərək tərəqqiyə doğru addımlamasında əsas pillə universitetlə başlayır. Elm yolundakı ilk təşəbbüs 859-cu ildə atılıb. Bu tarix dünyada ilk universitetin əsasının qoyulduğu ildir.

"Ginnesin Rekordlar Kitabı"na görə, Əl-Qaraviyyin Universiteti ən qədim ali təhsil ocağıdır. Əsası Fatimə əl-Fihri tərəfindən Mərakeşin Fəs şəhərində qoyulub. Burada həm qadınlar, həm də kişilər təhsil alıblar. Yer kürəsinin ən qocaman universitetinin bir qadın tərəfindən yaradılması da maraqlı məqamlardandır. İllər uzunu təhsildə cinsi ayrı-seçkiliyə məruz qalan qadınların haqları bu müstəvidə yalnız özlərinin üstün olduğunu iddia edən kişilər tərəfindən tapdalanmışdır.

Fatimə əl-Fihri tacir atasının sərvətindən ona qalan mirasla əvvəlcə məktəb kimi fəaliyyətə başlamış, sonra mədrəsə pilləsinə yüksələrək nəticədə ali təhsil müəssisəsinə çevrilən məscid tikdirmişdi. İlkin çağlarda dini mövzulara daha çox diqqət yetirilsə də, ritorika, məntiq, tibb, riyaziyyat, astronomiya və bir çox başqa sahələrdə dərslərin əlavə edilməsi tədris prosesini şaxələndirmişdi. Ali təhsil ocağının fəaliyyətə başlaması qısa zamanda böyük səs-küyə səbəb olmuşdu. Müxtəlif sahələrdən olan alimlər burada öz fəaliyyətlərini həyata keçirmək üçün müraciət etmişdilər.

Nüfuzu gündən-günə artan universitet müxtəlif təhsil səviyyələrinə görə dərəcələrin verilməsi sistemini tətbiq edərək elm sahəsinə ilk əsaslı yenilik gətirdi. Hətta həmin dövrün sultanlarının ianələr, hədiyyələr, xüsusilə kitab və əlyazmalarla dəstək verməsi universitetin böyük və qiymətli kitabxanaya sahib olmasına səbəb oldu. Müəssisə yalnız 1963-cü ildə Mərakeşin müasir dövlət universiteti sisteminə daxil edilib. Hazırda fəaliyyəti 1162 ildir ki, davam edən, 4 filialı olan təhsil ocağının nəzdindəki kitabxanada 4000-dən çox qiymətli əlyazmalar mövcuddur.

## *Bolonya Universiteti*

Fatimənin Əl-Qaraviyyin Universitetini yaratması ideyası tezliklə Avropa ölkələrinə çatmış və təşəbbüsün gerçəkləşdirilməsi yolunda ilk təkan İtaliyada olmuşdu. Avropada ilk ali təhsil müəssisəsinin əsası 1088-ci ildə Bolonya Universiteti ilə qoyulub. Hüququn dərindən öyrənilməsi səbəbi ilə hüquqşünaslığın banilərindən biri olan Yustinian belə bir qərara gəlmişdi. Lakin erkən vaxtlarda müəssisə universitet formasında fəaliyyət göstərmirdi. Professorlar evlərdə, şəhər meydanlarında mühazirələr oxuyurdular.

Universitetin çiçəklənmə dövrü XII əsrə təsadüf edir. Bu dövrdə hüquqla yanaşı, latın və yunan ədəbiyyatı, tibb, fəlsəfə elmləri də tədris olunan fənlər siyahısına daxil edilmişdi. Bolonya Universitetinin əsas fərqləndirici xüsusiyyəti rəhbərliyin tələbələr tərəfindən seçilməsi idi. Rektor, nümayəndələr, müəllimlər onların istəklərinə əsasən müəyyən edilirdi. Lakin XIV əsrdən sonra rəhbərlik Papa və yerli hakimiyyətin təzyiqlərinə məruz qalaraq onlara tabe oldu. Universitet dünyanın bir çox bölgələrindən tələbələri özünə cəlb etməyə başladı. XVI əsrdə vahid tədris binası tikilərək əvvəllər fərqli məkanlarda yerləşən fakültələr eyni dam altında cəmləşdirildi. Müəssisənin məşhur kitabxanasının əsası isə 1605-ci ildə professor Aldrovandi tərəfindən qoyuldu. Burada 250 minə yaxın kitab və 1350 dövri nəşr xüsusi diqqətlə qorunur.

Hazırda universitet doktorantura pilləsi də daxil olmaqla bütün mövcud ali dərəcələri təqdim edir. Bolonya Universitetinə "ali təhsil müəssisələrinin anası" titulu verilmişdir. Universitet beynəlxalq miqyasda əsas yerlərdən birini tutur. Burada təhsil alan məşhur şəxslərdən Françesko Petrarka, Dante Aligyeri, Nikolay Kopernik, Parasels və başqalarını qeyd etmək olar.

# 296 ildir fasiləsiz işləyən ilk restoran

**İnsanlar yüz illərdir ki, evdən kənar yerlərdə yemək yeyir, küçə satıcılarından qəlyanaltılar alır, yol kənarlarında bu mədəniyyətin formalaşdırılmasında iştirakçı olurlar. Restoranların yaranması ideyası da məhz bu ənənə ilə başlayıb. Sənədlərdən birində St.Peter Stiftskeller adlı restoran haqqında qeydlər mövcuddur. Əsası 803-cü ildə Avstryanın Zalsburq şəhərində qoyulan bu məkanın tarixi onu ən qədim restoran edir. Lakin bu məkan ilə bağlı ətraflı izaha mənbələrdə rast gəlinmir. Müasir dövrdə bu restoran eyni adla yenidən qurularaq peşəkar xidməti ilə seçilir.**




Əvvəla, restoran sözünün etimologiyası fransızca (restaurer) "özünü bərpa etmək" feilindən gəlir. Bulanser adlı aşpaz hazırladığı bulyonları "mədə ağrısından əziyyət çəkirsinizsə, yanıma gəlin, mən sizi sağaldacağam" şüarı ilə təqdim edirdi. Onun şorbalarını təsvir edən "yenilənmək" (restaurer) sözünün əsasında da restoran termini yaranaraq yeməklər təklif edən məkanı təmsil edəcək mərhələyə çatıb.

Erkən dövrlərdə dünyada mövcudluğu qeyd edilən sadə quruluşlu yeməkxanalar davamlı olaraq fəaliyyət göstərmirdi. XVIII əsrə qədər İspaniyada restoranların yaradılması mümkünsüz olub.

Dünyanın ilk, açıldığı vaxtdan indiyədək fəaliyyətini fasiləsiz həyata keçirən restoranı "Sobrino de Botin"dir. 1725-ci ildə İspaniyanın paytaxtı Madriddə fəaliyyətə başlayıb. Əvvəlcə bura Kasa Botin adlandırılıb. Aşpaz Cin Botin həyat yoldaşı ilə birlikdə Madridə köçərək restoran açmaq qərarına gəliblər. Onların uşaqları olmadığından ölümlərindən sonra yeməkxana xanım Botinin qardaşı oğluna miras qalıb. Sonralar adının dəyişdirilərək "Sobrino de Botin" qoyulması da, bu hadisə ilə bağlıdır. İspan dilindən tərcümədə "sobrino" sözü "qardaşoğlu" deməkdir.

Hazırda mülk Qonzales ailəsinə məxsusdur. Restoranda rast gəlinən odun sobası əsası qoyulan dövrdən, yəni 3 əsrdən çoxdur ki, istifadə edilir. Çeşidli ləzzətli klassik yeməklərin müxtəlif üsullarla təqdim edilməsi, tarixi ab-havası ilə məkan dünyanın dörd bir yanından gələn turistləri özünə cəlb edir. Bura Ernest Heminqueyin ən sevimli yeri olub. O, dəfələrlə əsərlərində buradan, oturduğu masadan bəhs edib. Məkanın heyrətamizliyi hətta İspaniya kralı və kraliçasını da saxta adla rezervasiya edərək "Sobrino de Botin"də nahar etməyə sövq edib.

# İlk körpü



**Hərəkət etdiyimiz yollarda qurulan, yol şəbəkəsini şaxələndirərək müxtəlif hərəkət istiqamətlərini, eləcə də maneələr üzərindən asanlıqla keçmək şəraitini yaradan qurğu körpüdür.**

Hazırkı dövrdə kabel, dəmir və betonun birləşməsindən inşa edilən körpülərin yol infrastrukturları üçün əhəmiyyəti danılmazdır. Qədimdə insanlar körpüləri salmaq üçün əlçatan materiallardan - daş və taxtadan istifadə edərək onların toplusu ilə ibtidai formalarını yaradıblar. Lakin bu körpülər yalnız kiçik məsafələri əhatə edəcək potensiala malik olub.

"Ginnesin Rekordlar Kitabı"nda dünyanın ən qədim körpüsünün Türkiyənin İzmir şəhərində yerləşən Karvan körpüsünün olduğu qeyd edilib. Meles çayı üzərində salınan körpü haqqında bir çox şeirlər yazılıb, mahnılar oxunub. Homerin əsərlərində xüsusilə bəhs edilən körpü yüz illər boyu dəvə karvanlarının çay üzərindən rahat hərəkət etməsi üçün tikilib. Meles çayı Homerin doğulduğu yer olmaqla yanaşı, yaradıcılığı ilə bağlı da böyük önəm kəsb edir. Ona görə də şeirlərində bu çay və Karvan körpüsü geniş əks etdirilib.

Roma, Osmanlı və Bizansın istifadə etdiyi bu körpünün ətrafında bir vaxtlar tut, sərv, çinar ağacları boydan-boya düzülmüşdü. Buraya gələn səyahətçilər də mənzərədən həzz almaq üçün onun üstündə dayanır, ətrafa heyranlıqla tamaşa edirdilər. Türkiyə Cümhuriyyəti dövründə körpünün əsl adı unudulub, əvəzində Kəmər körpüsü adlandırılıb. Zaman keçdikcə genişlənən İzmir şəhəri, salınan yeni yollar körpüdən istifadəni azaldaraq onu daha çox tarixi yer kimi qərarlaşdırıb.

# Dünyanın ilk hoteli



**Günümüzdə kommersiya məqsədi daşıyan turizm sektorunun vacib komponentlərindən sayılan hotellər hazırkı statusları və təqdim etdikləri imkanlar ilə bir-biri ilə yarışırlar. Bu anlayış yenicə mövcud olan vaxtlarda yaradılan hotel isə tək bir məqsəd daşıyırdı - uzağa səyahət edən zaman gecələmək üçün ehtiyac duyulan məkan.**

Dünyanın ilk hotelinə Yaponiya sahiblik edir. Nişiyama Onsen Keiunkan adlı mehmanxana 705-ci ildə yaradılıb. Həmin dövrdə hökmranlıq edən eyniadlı sülaləyə məxsus hotel isti bulaqların olduğu ərazidə salınıb. Əslində, buranı Fucivara Mohito sığınacaq kimi xidmət göstərmək niyyəti ilə tikdirmişdi. Lakin bir neçə il sonra mehmanxana qapılarını ictimaiyyətə açmışdı. İsti bulaqların müalicəvi xarakter daşıması insanların bura axın etməsinə səbəb olmuşdu. Qısa zamanda Yaponiyada məşhurlaşan hoteldə həmin dövrün məşhur sülalələrindən olan nümayəndələr də qalıblar.

Hotelin dizaynına buddizmə aid memarlıq üslubunda nüanslar daxil edilib. Salınan bağçada müxtəlif imtiyazlı şəxslərin heykəllərinə rast gəlmək mümkündür. 1997-ci ildə yenidən təmir olunaraq ərazisi olduqca genişləndirilmiş, lakin ilk vaxtlardakı ab-havası qorunub saxlanılmışdır. Alçaq yastıqlı oturacaqlar, masalar, tatami üzərində yatmaq üçün nəzərdə tutulan döşəklər ənənəviliyin əsas göstəriciləridir. 37 otaqdan ibarət hoteldə açıq istisu hamamları vardır ki, bu vannalarda müalicə olunub istirahət edərkən aydın səmanın bənzərsiz ulduzlarını seyr etmək olar.

Hoteldəki işçi heyətinin uniforması VIII əsrdən bəri mövcud olan "Nibu-Şiki" kimonosudur. Buradakı hər bir detal yarandığı dövrdəki tarixi mənzərəni simvollaşdırır. Restoranda əfsanəvi qonaqpərvərliklə təqdim edilən yeməklər sırasında dəniz məhsulları və bütün dünyanın ən yaxşı mal ətindən hazırlanan təamları yer alır. Qurulmuş müasir şəraitə baxmayaraq, məkanın sadə dizaynı və təbii dağlarla əhatə olunmuş mənzərəsi sanki hələ də 705-ci ili xatırladır. Hotelin əsasının qoyulduğu vaxtdan eyni nəslin davamçıları tərəfindən idarə olunması isə əsas diqqətçəkən məqamlardandır.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***




# "Meta"dan "ağıllı" saat




**Bu ayın əvvəlindən "Feysbuk" şirkətinin adı dəyişdirilərək "Meta" oldu. Yaxın vaxtlarda şirkət ilk "ağıllı" saat modelini təqdim etməyə hazırlaşır. Bu barədə məlumatlar bir müddət bundan əvvəl yayılsa da, saatın ilk fotosu bu günlərdə paylaşılıb.**

Bu qol saatı xarici görünüşü etibarilə "Apple Watch"u xatırlatsa da, korpusu ondan bir qədər geniş və kənarları əyri olacaq. Onun ekranının aşağı hissəsində kamera, gövdəsinin sağ hissəsində isə idarəetmə düymələri yerləşəcək. Yeni modelin gövdəsi paslanmaz poladdan hazırlanacaq.

"Ağıllı" saata modem və mobil şəbəkə modulu da inteqrasiya ediləcək. Mobil şəbəkə modulu vasitəsilə istifadəçi zəng edə, habelə gələn zəngləri qəbul edə biləcək. Hətta insan səhhətinin müxtəlif faktorlarının monitorinqi üçün nəzərdə tutulmuş sensorlara da sahib olacaq.

# Kapitansız dəniz nəqliyyatı

**Türkiyənin ilk pilotsuz gəmisi ULAQ SİDA nümayiş etdirildiyi dəniz nəqliyyatı sərgisində böyük marağa səbəb olub. 400 kilometr məsafədən nişan ala bilən döyüşsilahlı pilotsuz dəniz gəmisi həm sahildən, həm də gəmidən idarə edilə bilər.**




İlk təlim 27 may 2021-ci ildə həyata keçirilib. "Roketsan" tərəfindən hazırlanmış lazerlə idarə olunan mərmi atılıb və hədəf tam zərbə ilə vurulub. Daha sonra o, "Roketsan" tərəfindən hazırlanmış "Atmaca" idarə olunan mərmi atışında da pilotsuz sahədə idarəetmə tapşırığını yerinə yetirib. Onun yaxın məsafədən canlı atışları da olub. Bu, şirkət tərəfindən hazırlanmış "C-Band Data Link" sistemi ilə həyata keçirilib. Bu sistem 1 il ərzində dəniz qüvvələrinə təhvil veriləcək. O, hazırkı ULAQ prototipindən iki dəfə çox yük daşıyacaq.

SİDA-nın yerüstü, hava hücumundan müdafiə, mina əleyhinə tədbirlər və sualtı əməliyyatlarda istifadə oluna biləcəyini ifadə edən şirkət nümayəndəsi bildirib ki, bu yeni cihaz döyüşlərdə bir çox vəzifələri yerinə yetirmək üçün nəzərdə tutulmuşdur.

# Beyin implantı görmə qabiliyyətini geri qaytarır



**Uzunmüddətli təcrübələrdən sonra amerikalı və ispaniyalı alimlər komandası görmə qabiliyyətini itirmiş insanın görməsini qismən bərpa edə biliblər.**

Bunun üçün mütəxəssislər beyin qabığına inteqrasiya edilmiş xüsusi implantdan istifadə ediblər. Aparılmış neyrocərrahiyyə əməliyyatı zamanı mütəxəssislər 60 yaşlı Berna Qomez adlı qadının beyninə mikroelektrodları inteqrasiya ediblər. Bu beyin implantı görmə qabığı ilə birbaşa kontakt yaradıb. Qeyd etmək lazımdır ki, beyin implantı xüsusi kameralar ilə təchiz olunmuş eynək ilə sinxronlaşdırılıb.

Bu beyin implantının çalışma prinsipi isə belədir: beyin implantı fosfenləri (gözə işığın təsiri olmadan yaranan görmə hissiyyatı) yaradaraq neyronları stimullaşdırır. Həmin fosfenlər ağ işıq nöqtələri kimi qəbul edilir və onların hesabına görüntü yaranır. Qadın pasientin əməliyyat sonrası görmə qabiliyyətinin bərpasına və bu implantdan istifadənin öyrədilməsinə 6 ay vaxt sərf olunub. 6 aydan sonra qadın pasient hərfləri, xətt sərhədlərini və digər obyektləri görməyə başlayıb.

Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün mütəxəssislər həmçinin xüsusi proqram təminatını da hazırlayıblar. Həmin proqram təminatı oyunu xatırladır və öz növbəsində pasientə yeni görmə hissiyyatlarına öyrəşmək imkanı verir.

# Yeni nəsil naqilsiz qulaqlıq

**"Apple" şirkəti "Beats Fit Pro" adlı yeni naqilsiz qulaqlıqları təqdim edib. Sözügedən qulaqlıqlar "Apple H1" prosessoru ilə təchiz olunub. Yeni cihaz kənardan gələn səs-küyün boğulması sisteminə sahibdir. O, bu yaxınlarda təqdim edilmiş "AirPods 3"ün funksiyalarını dəstəkləyir və üstəlik "Siri" adlı köməkçiyə də malikdir.**



"Apple"dan bildirilir ki, "Beats Fit Pro" blutuz vasitəsilə "Android" smartfonlara da qoşula bilər. Yeni qulaqlıqların konstruksiyalarında xüsusi bərkidici hissə mövcuddur. Qulaqlığa birləşdirilmiş bu bərkidici hissə sayəsində "Beats Fit Pro" istifadəçilərin qulaqlarından hətta aktiv idman zamanı belə düşməyəcək. Bərkidilən həmin hissəni gövdədən ayırmaq mümkün deyil.

Yeni qulaqlıqların gövdələri nəmişlikdən qorunur. Bu qulaqlıqlar 9.5 düyümlük drayverlər ilə təchiz olunub və geniş həcmli səsləndirməni təmin edir. Telefon zəngləri zamanı qulaqlıqların mikrofonları tamamilə istifadəçinin səsinə fokuslanır və ətrafdakı səs-küyü boğur. Bunun sayəsində telefon danışığı prosesinin hər iki iştirakçısının səsi daha aydın eşidilir.

"Apple" şirkətinin sözlərinə əsasən, bu qulaqlıqların əsas özəlliyi "ANC" adlı funksiyadır. Bu funksiya elə qurulub ki, xarici küyü saniyədə 200 dəfə analiz edir və bunun əsasında istifadəçi üçün ən komfortlu səsləndirməni həyata keçirir. "Beats Fit Pro" şəffaflıq rejimini də dəstəkləyir. Bu iki funksiya aktiv olmadığı zaman "Adaptive EQ" texnologiyası işə düşür. Sözügedən texnologiya istifadəçinin eşitmə kanalının formasına əsasən səsi adaptasiya edir. "ANC" funksiyası ilə şəffaflıq rejiminin aktiv olduğu halda "Beats Fit Pro" 6 saat müddətində çalışır. Bu halda istifadə müddətini xüsusi saxlama qutusunda 21 saata kimi yüksəltmək olar. "Adaptive EQ" texnologiyasının aktiv olduğu halda isə qulaqlıqlar 7 saat, qutusu ilə birlikdə isə 27 saat çalışa bilir.

# 30 trilyon il əvəzinə bir millisaniyə

**Kvant texnologiyaları sahəsində Vaşinqton ilə Pekin arasında rəqabət getdikcə artır. Pekin alimləri tərəfindən yaradılmış yeni kvant kompüteri "Google" şirkətinin analoqundan milyon dəfə güclüdür və dünyanın ən sürətlisidir.**



Çinli fiziklərin sözlərinə görə, onlar "Google" şirkətinin kvant kompüterini həm gücdə, həm də sürətdə dəfələrlə üstələyən yeni kvant kompüterini hazırlayıblar. Verilən məlumata görə, "Jiuzhang 2" adlı kvant kompüteri 1 millisaniyə ərzində elə bir tapşırığın öhdəsindən gəlir ki, həmin tapşırığı həll etmək üçün adi güclü kompüterə 30 trilyon il vaxt lazım olardı. Bundan əlavə, onlar "Zuchongzhi 2" adlı kvant kompüter barəsində də məlumat veriblər. Bu kvant kompüter daha öncəkinin yeni versiyasıdır.

Məlumatda qeyd edilib ki, 66 kubitə sahib "Zuchongzhi 2" kompüteri "Google" şirkətinin 55 kubitli "Sycamore" adlı kvant kompüterindən 10 milyon dəfə daha sürətlidir. "Jiuzhang 2"yə gəldikdə isə o, adi kompüterlərdən 100 sekstilyon dəfə daha sürətlə çalışır. Sözügedən kvant kompüterlərinin bu cür göstəriciləri hesablama sahəsində yarada biləcəkləri inqilaba baxmayaraq, onlar yaxın zamanda bazarda təqdim olunmayacaqlar. Hər iki kompüter hələ ki, xüsusi mühit çərçivəsində çalışa bilir. Bununla yanaşı, ən dəqiq hallarda belə kompüterlər çoxlu sayda səhvlər buraxır. Çinli alimlər bu cür mənfi cəhətləri yaxın 4-5 il ərzində aradan qaldıracaqlarına söz veriblər.

# Yeni fəza gəmisi



**İngiltərənin "Virgin Galactic" şirkəti yeni kosmik gəmini təqdim edib. Kosmosa səyahət etməyi arzulayan turistlər üçün nəzərdə tutulan "fəza gəmisi"nin yaxın vaxtlarda ilk sınaqlarına başlanılacaq.**

Səyahət zamanı kosmos turistləri təxminən 110 kilometr yüksəklikdən Yer kürəsini müşahidə etmək imkanı əldə edə biləcəklər. Şirkət intensiv uçuşların 2022-ci ildə başlayacağını bəyan edib. Lakin gəminin sərnişini olmaq üçün şərtlər hələlik açıqlanmayıb.

# 5D texnologiyalı disk

**İngiltərənin Sausempton Universitetinin alimləri yeni nəsil lazerlər vasitəsilə məlumatların saxlanması sahəsində inqilabi yeniliyə imza atıblar. Belə ki, onlar məlumatların sıx şəkildə yazılmasına və yazılmış məlumatların uzunmüddət saxlanmasına nail olublar.**



Yeni texnologiya CD-ROM ölçüsündə olan yaddaş qurğusuna 500 terabayt həcmində məlumatı yazmağa imkan verir. Bu texnologiyanın yaradıcıları güman edirlər ki, onun tətbiqi istənilən məlumatın yazılmasına imkan verəcək. Sausempton Universitetinin mütəxəssisləri bu texnologiya üzərində uzun müddətdir çalışırdılar. Texnoloji yeniliyin ilk versiyası hələ 2013-cü ildə sərgilənmişdi.

İlkin mərhələlərdə mütəxəssislər bu texnologiyadan istifadə edərək 300 kilobayt həcmindəki mətn faylını uğurlu şəkildə yaddaşa yazmağa və onu yaddaşdan çıxartmağa nail olmuşdular. Lakin alimlərin gözləntiləri daha çox idi.

Bu yeni texnologiya çərçivəsində məlumatlar ultraqısa impuls lazeri vasitəsilə yazılır. 1 saniyədə 1 milyon vokseli sürətlə yazmağa imkan verir. Bu cür sürət isə saniyədə 230 KB-a bərabərdir. Lazer qısa müddətdə və çox sürətlə işıq impulsunu diskə ötürür. Bunun nəticəsində şüşə üzərində çox kiçik-nano ölçülərdə strukturlar yaranır. Yaranan strukturlar isə özlərində lazer şüalanmasının intensivliyi və qütbləşməsi barədə məlumatları birləşdirir. Saxlanılan məlumatlar arasında həmçinin lazer şüalanmasının 3D ölçüləri də mövcuddur. Buna görə də sözügedən texnologiya məlumatların 5D saxlanması kimi tanınır. 2015-ci ildə alimlər bu texnologiya sayəsində arxiv sənədlərinin rəqəmsal versiyalarını yaddaşa yazmaqla öz nailiyyətlərini nümayiş etdirmişdilər.

Həmin vaxt alimlər bu texnologiyanın digər keyfiyyətlərini də aşkar etmişdilər. Yüksək temperatura, nəmişliyə, maqnit sahələrinə və mexaniki zədələnmələrə qarşı həssas olan adi sərt disklərin yaddaşlarından fərqli olaraq məlumatların 5D saxlanması texnologiyası inanılmaz səviyyədə istilik sabitliyini və otaq temperaturu şəraitində limitsiz çalışma müddətini təmin edir. Həmin vaxtda alimlər məlumatların yüksək sürətlə və yüksək sıxlıqla yazılması imkanını real şərtlər altında tətbiq etməli idilər. İndi isə onlar bildirirlər ki, "yaxın sahənin gücləndirilməsi" adlı optik fenomenin tətbiqi sayəsində bu sahədə də bir çox çətinliklər dəf edilib.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ
Date: 17.11.2021
**Assignment Title: Selection of a service providing company for PREPARATION OF PROJECT IT DATABASE AND BACKUP (ARCHIVING) of ACIP FOR THE PERIOD 2014-2021**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for non-consulting services.

The project consists of four components:
(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(ii) *Component B - Agri-food value chain development.* The activities will be structured into two sub-components: *(i) İnvestment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(iii) *Component C - Financial services to agribusiness.*
(iv) *Component D - Project Management.*

**The general objective of the assignment**

As per Government requirement, upon finalization of the Project, the Project related documentations need to be handed-over to the government archive office in the required manner.

Along with that, under the ACIP Project were developed a wide and important range of strategy planning, assessments, recommendation reports which need to be saved in proper manner. Therefore, the establishment of filing system of Project related legal documents, correspondence with the Bank on important agreements, Aide Memories, Contracts, deliverables, payments etc. is very important for needs. In addition, these documentations are beneficial as a rreference/sample for further new project implementation.

As the Project has several subcomponents and different Beneficiaries, Project related documentations and the developed TA deliverables are with different Beneficiaries; they need to be compiled and saved systematically.

In order to have database of deliverables and important Project related documents and make the database for further usage, The Executing Agency (EA) intends to hire service providing company.

**Scope of services**
**1) Preparation of project database**

The assignment covers the whole project life from 2014 - 2021. All data on Project is available with Project Implementation Unit and will be delivered to service providing Company. The Service providing Company needs to prepare filling/database IT system covering but not limited the following mail stones:

- Legal Documents (agreements, legal opinions, manuals and etc.)
- Signed Contracts, deliverables under the following Components:

*Component A - Support for sanitary and phytosanitary services,*
*Component B - Agri-food value chain development.*
*Component C - Financial services to agribusiness*
*Component D - Project Management.*

**2) Preparation of Scanned and hard copies**

The project database must include all type of files as per availability (word, excel, hard copy and etc.) including the must requirement - scanned final versions. Project Implementation Unit will support the Service Providing Company with necessary equipment (scanning/copying machinery).

**3) Project documents Pack-up for hand over**

The Service providing Company must have relevant staff with strong knowledge of government filling and hand-over requirement. Furthermore, the Service providing Company must prepare the list of stationary requirement to pack the Project related documents.

**Deliverables**

The final products of the assignment are (i) Soft data base - Soft IT search system for easy access; (ii) scanned project documents and in case of need preparation of hard copies of selected documents;)(iii) data packed up in accordance with Government standards Project documents.

**Reports**

The following REPORTS are required:

1) Initial report, describing the approach and methodology, classification and timing (within 5 (five) days after the signing of the Contract);
2) Draft version of IT search system and scanned version of required Project related documents for the year 2014-2017 (within 15 days after the Contract signature);
3) Draft version of integrated database to the IT search system and scanned version of required Project related documents for the year 2018-2021 (within 30 days after the Contract signature);
4) Final data base system with all considered information and pack-up of Project related documents in accordance with Government Archive office requirement (within 35 days after the Contract signature).

**Timing**

The Consultant shall perform the Services in work premises of Client for 1 month, the period commencing **from November 2021,** and continuing through **December 30, 2021.**

**Team Composition and Qualification Requirements**

The assignment will be carried out by Service Providing Company with the following experience and staffing:

- relevant experience specific to the assignment, i.e preparation of data base, archiving, search system and etc;
- Experience in Internationally Financed Project will be strong asset;
- relevant staffing (at least 5 key experts) with strong knowledge and experience minimum in the following areas: IT developer for data base/search system establishment; Team leader with strong knowledge and understanding of Internationally financed Projects; Project pack-up staff with strong experience and knowledge of Government requirements. It would be desirable to include the staff from archive service; well experienced finance or/and procurement or/and evaluation/monitoring staff; several technical staff for coping, printing, scanning, and etc. Staff should have experience in project related field (procurement management, finance, evaluation and monitoring etc.)
- Reporting skills of staff is highly required;
- Fluency in English and in Azerbaijani of proposed staff is required;

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants [under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers January 2011 edition Revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interest.

Consultant will be selected in accordance with the CQS Selection Based on Consultant's Qualification method set out in the Consultant Guidelines.

Further information can be obtained at the address below during office hours from 09:00 to 18:00.

Expressions of interest must be delivered in a written form to the address below (in person, by mail or by e-mail) by November 26, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture / Agricultural Competitiveness Improvement Project**

**Anar Azimov**
**Project Director**
**AZ1075, 1965 Ziya Bunyadov avenue, Chinar Park Business Center, Baku Azerbaijan**
**Tel: +99412 525 01 17**
**E-mail: anarazim@gmail.com; a.azimov@akia.gov.az; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az; gunelsafaraliyeva@gmail.com**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərinə tələb olunan təhlükəsiz üzmə avadanlıqlarının satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 noyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Elanı 09 sentyabr 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalında yerləşdirilmiş, elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderlə əlaqədar Tender komissiyasının 05 noyabr 2021-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün poçt (kuryer) xidmətinin satın alınması üzrə "ALİB EXPRESS" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad olunmuş sahəsində 25 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin olunması, işğal altındakı sərhədlərimizin azad edilməsindən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması işləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, bu tədbirlər çərçivəsində dövlət sərhədinin işğaldan azad olunmuş sahəsində şəxsi heyətin və hərbi nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsi üzrə DSX-nin mühəndis-istehkam bölmələri tərəfindən mina və partlamamış döyüş sursatlarının axtarışı, aşkarlanması və zərərsizləşdirilməsi fəaliyyətləri, eləcə də sərhəd mühafizə infrastrukturunun bərpası və yenidən qurulması xüsusi əhəmiyyət kəsb edir.

Noyabrın ötən dövrü ərzində DSX-nin mühəndis-istehkam bölmələri tərəfindən Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad olunmuş sahəsinin 25 hektar ərazisi mina və partlamamış hərbi sursatlardan təmizlənib, nəticədə 38 ədəd PMN-2 markalı piyada əleyhinə mina aşkarlanaraq partlayış üsulu ilə zərərsizləşdirilib.

Göstərilən istiqamətdə dövlət sərhədi boyunca 1230 metr məsafədə mühəndis çəpərlərinin quraşdırılması tamamlanıb, 1300 metr məsafədə işlər davam etdirilir.

Ciddi siqnal

# Ovlaq xəlvət, brakonyer bəy

## Tədbir görülməsə, quşların qışlama yeri olan Mahmudçaladan təkcə çala qalacaq



**Salyan-Biləsuvar yolunun üstündə yerləşən Mahmudçala qədimdən ovçuların ovlaq yeri olub. Payızın ilk aylarından başlayaraq şimaldan quşlar qışlamaq üçün bura köç edirlər. Yüz hektarlarla su hövzəsi, suda bitmiş qamış, dala, sahildə quşların qidası olan digər yabanı bitkilər "qanadlı qonaq"lardan ötrü çox əlverişli təbii şəraiti təmin edən şərtlərdir.**

Sovetlər zamanında bu ərazi ovçuluq təsərrüfatı kimi Ovçular Cəmiyyətinin Salyan təşkilatının tabeliyində olub. Cəmiyyətin sədri Valeri Danilov təbiəti sevən, onun qorunmasına son dərəcə məsuliyyətlə yanaşan bir insan kimi ovçuların xatirəsində indi də yaşayır. Bundan əlavə, o zaman təbiətə qənim kəsilən brakonyerlərə qarşı mübarizə aparan Rayonlararası Təbiəti Mühafizə İdarəsi Mahmudçala ovçuluq təsərrüfatının, necə deyərlər, beş addımlığında - Salyan şəhərində yerləşirdi. Müxtəlif illərdə canları-qanları ilə təbiətə bağlı olan Paşa Əbilov və Mais Ağalarov kimi təcrübəli, prinsipial adamlar həmin idarəyə rəhbərlik etmişlər. İdarənin əməkdaşları, demək olar ki, günün bütün saatlarında iş başında olar, qanunsuz balıq və quş ovunun qarşısını alar, eyni zamanda nəsli kəsilməkdə olan, adı "Qırmızı kitab"a düşən quş, balıq, digər heyvan və bitkiləri göz bəbəkləri kimi qoruyardılar. Qayda-qanunlara əməl etməyənlərə qarşı görülən tədbirlər başqalarına da dərs olardı.

Bəs bu iş indi necə təşkil edilib?

Bəri başdan bildirək ki, Ovçular Cəmiyyətinin yerli təşkilatları indi fəaliyyət göstərmir. Nəzarət məsələsinə gəldikdə isə, bu iş Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Lənkəranda yerləşən regional idarəsinin öhdəsinə düşür. Məsafə baxımından uzaq olduğundan idarənin işçiləri Mahmudçalaya az-az gəlir və bu səbəbdən nəzarət funksiyalarını tələb edilən səviyyədə yerinə yetirə bilmirlər. Belə hal isə brakonyerlərə yaxşı fürsət yaradır. Onlar qorxu-ürkü bilmədən ovçuluq qayda-qanunlarını pozur, təbiətə ziyan vururlar. Ov edib pul qazanan brakonyerlər öz əməllərini əsasən gecə vaxtı həyata keçirirlər. Qayıqlarla gölün dərinliklərinə gedib özləri üçün münasib yer seçən, marıq quran brakonyerlər ördək, qaz, qaşqaldağın qənimidirlər. Onlar bu quşları kütləvi şəkildə ovlamaq (daha doğrusu, qırmaq) üçün min oyundan çıxırlar. Əvvəl quşların rezin və kauçukdan düzəlmə müqəvvalarını oturduqları marığın qarşısına düzürlər. Sonra isə xüsusi cihazla həmin quşların yazılmış səsini ətrafa yayırlar. Beləliklə, yazıq quşlar böyük dəstələrlə bu səslərə aldanaraq tələ kimi düzülmüş müqəvvaların yanına qonurlar. Həmin anda insafsız ovçu əlinin altında hazır saxladığı güclü fanarın işığını yandırır. Gözünə işıq düşən quşlar çaşbaş qalır. Bu zaman brakonyerlər yaxın məsafədən açdıqları atəşlə quşları qırıb-tökürlər. Tələyə düşən düşür, sağ qalanlar isə uçub gedirlər.

Əsl ovçular, yəni təbiətsevərlər isə həftəsonu lisenziya (icazə) alıb Mahmudçalaya gəlsələr də, burada ov edə bilməyib kor-peşman, əliboş geri qayıdırlar. Salyan rayonunun Borankənd sakinləri Sədyar Əhədov, Nazim Əhədov, Qədirağa Əhmədov və başqaları deyirlər ki, 40 ildən çoxdur ovçuluqla məşğul olurlar: "Payız-qış aylarında hər həftənin sonu lisenziya götürüb bura ova gəlmişik. Əvvəllər ovumuz uğurlu olurdu. Qoyulmuş qaydaya əsasən, qaşqaldaq, ördək, hətta qaz vururduq. Göldən çıxıb sakit bir yerdə səksöyül yığır, ocaq qalayıb ovumuzun tamından dadardıq. Bu, bizim üçün əsl istirahət idi. İndi isə ovdan əliboş qayıdırıq. Axşamlar işıqla ov edən brakonyerlər gələn quşları pərən-pərən salırlar. Quşlar da bunu görüb başqa yerlərə, ayrı göllərə uçub gedirlər. Əlaqədar təşkilatlardan xahişimiz odur ki, Mahmudçala ovlağında qayda-qanun yaratsınlar. Əks halda Mahmudçaladan təkcə çala qalacaq".

***Seyran CAVADOV, "Azərbaycan"***

# BMT həyəcan təbili çalır

## Əfqanıstan humanitar böhranın astanasındadır, ölkədəki durum terrorizm təhdidini artırır

*Əvvəli 1-ci səh.*





Diplomatlar belə qənaətdədirlər ki, Əfqanıstanda vəziyyət daha da dramatikləşir.

Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya hesab edir ki, böhranın aradan qaldırılması üçün Qərb banklarında dondurulmuş əfqan hesablarını mümkün qədər tez açmaq lazımdır. Bu gün miqrasiya axınları pərdəsi altında gizlənən terror və narkoaktivliyin qonşu ölkələrin ərazisinə köçürülməsi cəhdləri ilə bağlı real təhlükə mövcuddur.

Beynəlxalq maliyyə institutlarının xətti ilə bank hesabları açılmayacağı təqdirdə Əfqanıstanın sosial-iqtisadi problemlərini həll etməyin mümkün olmayacağını vurğulayan Nebenzya ümid edir ki, talibləр bu çağırışların - terrorizmin və narkotrafikin kökünün kəsilməsi ilə bağlı öz vədlərini yerinə yetirəcəklər.

İclasda Rusiya tərəfi BMT-nin himayəsi altında Əfqanıstanla bağlı beynəlxalq donor konfransının çağırılmasına tərəfdar çıxıb. Rəsmi Moskva hesab edir ki, Əfqanıstanın postmünaqişə iqtisadi və maliyyə bərpasının və inkişafının əsas yükünü son 20 il ərzində hərbi kontingentlərinin bu ölkədə yerləşdirildiyi qüvvələr daşımalıdır.

Ötən ay Moskvada taliblərin iştirakı ilə danışıqlar aparıldı. Onlar hakimiyyətə gələndən sonra Əfqanıstanda müvəqqəti hökumət yaratdılar və hazırda onun beynəlxalq səviyyədə tanınmasına nail olmağa çalışırlar.

### Terrorizm, narkoticarət, aclıq...

İclasda çıxış etmiş digər ölkələrin nümayəndələri də bidiriblər ki, Əfqanıstanda yaranmış ağır iqtisadi vəziyyət terrorizmin yayılması, həmçinin silah və narkotik alverinin artması ilə bağlı getdikcə daha çox təhlükəyə çevrilir.

Ekspertlərin qiymətləndirməsinə görə, hazırda Əfqanıstan humanitar böhranın astanasındadır. Belə ki, ölkədə quraqlıq davam edir və ərzağın qiyməti artır, buna görə də 18 milyondan artıq insan ac qalır.

Noyabrın 17-də MDB ölkələri Təhlükəsizlik Şuralarının katiblərinin görüşü keçirilib. İclasda bir neçə məsələ müzakirə olunsa da, əsas mövzu Əfqanıstandakı vəziyyət olub. Konfrans iştirakçıları "yaraqlıların çoxminlik ordusu"nun bu ölkədən digər ölkələrə basqını təhlükəsi barədə danışıblar.

Bəs fəlakətli ssenaridən qurtulmaq mümkün olacaqmı?

Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev "Taliban"ın (Rusiyada qadağan olunmuş terror təşkilatı) hakimiyyətə gəlişini "ABŞ və müttəfiqlərinin iyirmi illik məsuliyyətsiz siyasətinin qanunauyğun finalı" adlandıraraq deyib: "Əfqanıstanda misli görünməmiş ağır vəziyyət yaranır - istər hərbi-siyasi, istərsə də sosial-iqtisadi baxımdan", sonradan isə hadisələr fəlakətli ssenari üzrə inkişaf edə bilər".

Qırğızıstan Təhlükəsizlik Şurasının katibi Marat İmankulov bildirib ki, MDB məkanında bütün təhdidlər arasında ən təhlükəlisi (ən azı, Mərkəzi Asiya ölkələri üçün) məhz Əfqanıstandakı qeyri-sabitlikdir: "Orada ictimai-siyasi vəziyyətin inkişafı ilə bağlı risklər və təhdidlər çoxdur. Ölkədə maliyyə böhranıdır, biz humanitar fəlakət gözləyirik, 18-20 milyon əfqan ərzaq çatışmazlığı hiss edə bilər. Əgər döyüşlər və aclıq olarsa, çoxminlik qaçqın axını qaçılmaz olacaq. Əgər onlar şimala gedərlərsə, orada Özbəkistan və Tacikistan, sonra Qırğızıstan və Qazaxıstan, daha sonra isə Rusiya var".

M.İmankulov sərhədlərin birgə möhkəmləndirilməsi zəruriliyini vurğulayıb: "Çünki qaçqınlarla birlikdə Əfqanıstanda yerləşən "çoxminlik yaraqlılar ordusu" nun üzvləri vəziyyətdən istifadə edə bilərlər.

O xatırladıb ki, 1999-2000-ci illərdə onun ölkəsi məhz taliblərin idarə etdiyi Əfqanıstan İslam Əmirliyinin ərazisində yerləşən yaraqlıların hücumlarına məruz qalıb.

Nüfuzlu "Kommersant" nəşri xəbər verir ki, media üçün qapalı olan çıxışlar zamanı Marat İmankulov MDB ölkələrinin xüsusi xidmət orqanları arasında Əfqanıstanla bağlı məlumat mübadiləsini gücləndirməyə çağırıb.

Əfqanıstan probleminə Qazaxıstan və Tacikistan Təhlükəsizlik şuralarının katibləri Aset İsekeşev və Nəsrullo Mahmudzoda da diqqət yetiriblər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin rəhbərliyi və kollektivi 2 saylı Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsinin direktoru Pərvanə Səfərovaya anası

**SUĞRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2307
Qiyməti 40 qəpik